Təhsildə Keyfiyyət Təminatı Agentliyi

**Azərbaycan Dövlət Pedaqoji Univesiteti – Corc Vaşinqton Universiteti İkili Diplom Proqramı**

**Təhsil siyasəti və idarəetməsi ixtisası üzrə**

**Proqram akkreditasiya qiymətləndirilməsinə dair Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2024-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

| | |
|---|---|
| Yunusova Vəfa Sabir qızı | ADA Universiteti, Təhsil fakültəsinin baş müəllimi, Təhsilin idarəedilməsi üzrə fəlsəfə doktoru |

**Komissiyanın üzvləri**

| | |
|---|---|
| Sotova Lyudmila Vyaçeslavovna | Xəzər Universiteti, Keyfiyyət təminatı mərkəzinin direktoru |
| Abaslı Könül Abasqulu qızı | Sumqayıt Dövlət Universiteti, Rektorun müşaviri, Pedaqogika üzrə fəlsəfə doktoru |
| Seyidova Sevinc Bariz qızı | Bakı Modern Təhsil Kompleksi nəzdində Bakı Modern Beynəlxalq Məktəbinin direktoru, Bakı Dövlət Universiteti, Təhsilin təşkili və idarəedilməsi üzrə doktorant (təhsilalan) |
| Hüseynli Aytəkin Natiq qızı | Vaşinqton Universiteti (St. Louis), Braun Məktəninin Postdoktoral tədqiqatçısı, UNİCEF-in Avrasiya Üzrə Tədqiqat və Statistika üzrə Məsləhətçisi. |

**Mündəricat**

**I Giriş**

1.Qiymətləndirilən təhsil proqramına dair məlumatlar

**II Təhsil proqramının akkreditasiya qiymətləndirilmə nəticələri**

2. Qiymətləndirmənin icmalı

3. Komissiyanın meyarlar üzrə təhlili

4. Təhsil proqramı üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi

5. Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

6. Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

# I Giriş

## 1. Təhsil proqramına dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə ABŞ-nın Corc Vaşinqton Universitetinin İkili diplom proqramı |
| Təhsil səviyyəsi | Magistratura |
| Təhsil Proqramının şifri və adı<br>- İxtisaslaşmanın adı | ABŞ-nin Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbi ilə birgə ikili diplom proqramı<br>- CVU tərəfindən təqdim edilən ixtisas: Təhsil və insan inkişafı<br>- ADPU tərəfindən təqdim edilən ixtisas: 060407 – Menecment (*təhsilin təşkili və idarə olunması)* |
| Sonuncu proqram akkreditasiyasına dair şəhadətnamənin verilmə tarixi və müddəti | Olmayıb |
| Təhsil müəssisəsinin rəhbəri | Professor Cəfər Cəfərov |
| Fakültənin adı | ADPU-CVU ikili diplom proqramı |
| Təhsil proqramının təhkim olunduğu kafedra(lar) sayı | Yoxdur. Təhsil proqram direktorluğu tərəfindən idarə olunur. |
| Təhsil proqramı üzrə təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Magistratura: 81 *(d/s 4 və ö/ə 77)* |
| Təhsil proqramı üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) | Magistratura:<br>D/S:<br>Ö/Ə: 2000 manat (ADPU)<br>CVU təhsil haqqını və inzibati xərclər dövlət proqramı çərçivəsində Neft Fondu tərəfindən ödənilir. |
| Təhsil proqramı üzrə təlim və tədris prosesinə cəlb edilmiş ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətinin sayı | 1 (ADPU), 6 (CVU) |
| Təhsil proqramı üzrə əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik:<br>Saathesabı: 7 (ADPU), 2 (CVU) |
| Təhsil müəssisənin elektron ünvanı və əlaqə telefonu | office@adpu.edu.az |
| Təhsil müəssisənin hüquqi ünvanı | Üzeyir Hacıbəyli, 68, Bakı, Səbail, AZ1000 |
| Təhsil müəssisənin faktiki ünvanı | Fətəli xan Xoyski 109, ARTİ-nin Təhsil Texnologiyaları Mərkəzi |

## II Təhsil proqramının akkreditasiya qiymətləndirilmə nəticələri

### 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu

1.1 . Akkreditasiya komissiyasına (AK) cari ikili diplom proqramı Azərbaycan Respublikası Prezidentinin "2019- 2023-cü illərdə Azərbaycan ali təhsilinin rəqabətqabiliyyətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirildiyi üçün, tədris illəri üzrə tələbə qəbulunun sayı əvvəldən müəyyənləşdirilmiş plan üzrə aparıldığı bildirildi. Proqrama illər üzrə qəbul edilmiş tələbələrin sayı 2020-ci ildə 25 olub. Onlardan 3 nəfəri proqramdan xaric edilib, 2 nəfərin akademik məzuniyyət götürdüyü qeyd edilib. 2021 ci ildə qəbul almış 24 tələbədən 4 nəfərin 2 fənn üzrə kəsiri olub, həmin ildə 4 tələbə normativ təhsil müddətindən artıq təhsil alıb və 1 tələbə akademik məzuniyyət götürüb. 2022-ci və 2023-cü illərdə proqrama qəbul edilmiş təhsilalan sayının 25 tələbədən 40 tələbəyə qədər artırılması Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və Corc Vaşinqton Universiteti (CVU) arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilə ilə təsbit edilib. Beləliklə, 2022-ci ildə proqrama 38 tələbə qəbul edilib, onlardan 1 nəfər proqramdan xaric edilib, 1 nəfər isə akademik məzuniyyət götürub və 1 təhsilalan sonrada proqrama bərpa olunub. Sonrakı 2023-ci ildə proqrama 40 tələbə qəbul edilib, onlardan bir nəfər proqramdan xaric edilib.
Hal-hazırda 3-cü (2022 2023-cü tədris ili) və 4-cü (2023-2024-cü tədris ili) qəbul üzrə ikili diplom proqramında ümumlikdə 81 tələbə təhsil alır. Ümumiyyətlə, 1-ci (2020-2021-ci tədris ili) və 2-ci (2021-2022-ci tədris ili) illərdə qəbulalmış və məzun olmuş tələbələrin ümumi sayı 46 nəfərdir. 13 iyun 2022-ci il tarixində ikili diplom proqramının ilk Məzun Günü və ETN-nin iştirakı ilə 2023-cü ilin iyunun 24-də ikinci Məzun Günü keçirilib.
(https://edu.gov.az/az/announcements/20101-1;
https://www.youtube.com/watch?v=b4bTjTPzbzA ).
Yanvar-dekabr 2022-ci il tarixli özünütəhlil hesabatında (ÖH) 2022-2023-cü tədris ilində ikili diplom proqramına ilkin siyahıda qəbulu nəzərdə tutulan tələbələrdən ikisi Elm və Təhsil Nazirliyi (ETN) və CVU ilə ilkin şifahi qaydada razılaşmaya baxmayaraq, Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən tələbələrin siyahısına daxil edilməyib. Dekabr –yanvar 2022-ci il tarixli ÖH-də bu məsələnin bir sıra texniki, inzibati problemlər yaratdığı qeyd edilib. İkili diplom proqramının ADPU üzrə məsul şəxsləri 2023-cü ilin qəbulu ilə bağlı ciddi şəkildə gecikmənin yaranmasının səbəbini CVU tərəfinin qəbul üzrə dekanın dəyişməsi (Admission Dean) ilə əlaqəli olduğunu bildirdi. AK tərəflər arasında ünsiyyətin, sənədlərin vaxtlı-vaxtında imzalanması və qərarların alınmasında müəyyən çətinliklərinin yaranmamasının qarşısını almaq məqsədilə daha ciddi yanaşmanın tətbiq edilməsini məqsədəuyğun hesab edir.

Bundan başqa, 2022-2023-cü tədris ili üçün sənəd qəbulunda 130 nəfərdən artıq şəxsin ikili diplom proqramına müraciət etdiyi və sənədlərin CVU sistemi üzərindən yükləndiyi üçün vəziyyəti operativ dəyərləndirməkdə çətinlik yarandığı qeyd edildi. Ümumi sayla bağlı məlumatların gec daxil olması səbəbindən 2022-2023-cü tədris ili üçün sənəd qəbulu ilə bağlı son vəziyyət haqqında məlumatlar da gec ötürülüb. 2020-2021 ci tədris ili ilə müqayisədə, 2022-2023-cü tədris ili üzrə beynəlxalq ingilis dili sertifikatı üçün minimum tələblərin yüksəldilməsi (IELTS 6.5-ə qarşı 7.0 və 110 Duolingo balına qarşı 120) baş verib. CVU-nun rəsmi saytında (https://gsehd.gwu.edu/admissions/international#english) ingilis dili sertifikaı üçün keçid balının IELTS -7.0, TOEFL – kağız qələmlə 600, internet üzərindən 100, DuoLingo imtahanı üçün 120 olması tələbi mövcuddur. AK ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilədə üç beynəlxaql dil imtahanı üçün tələb olunan keçid balının qeyd

edilmədiyiini müəyyən etdi. Bunu nəzərə alaraq, ADPU bir tərəfdaş kimi dil imtahanlarında keçid balının artımının səbələrinin əsaslandırılmasında daha maraqlı olmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları" ilə tənzimləndiyinə magistratura səviyyəsinə qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər malikdirlər. Bu qərara uyğun olaraq, ikili diplom proqramına müraciət edən şəxslər DİM-in magistratura imtahanından keçərkən Xarici dil üzrə isə 20 (o cümlədən açıq tipli 2) test tapşırığı və yazı işi (esse) yerinə yetirməlidir. Əgər bu bal 20-dən aşağı olarsa, müraciətçilər minimum bal həddini keçməmiş sayılır. Sahə baxışı zamanı aparılan müsahibələrdə bəzi tələbələr bu səbəbdən ikili diplom proqramına qəbul qaydalarında olan çaşqınlıqdan narazılıq ifadə etdi. Buna səbəb kimi ADPU-CVU -nun da ikili diplom proqramına qəbul qaydalarında ərizə formasını doldurmaq, minimum 750 sözlük motivasiya məktubu (statement of purpose) yazmaq, tövsiyə məktubu əlavə etmək kimi tələblərin olduğunu qeyd etdilər. Beləliklə, son iki ildə bütün sənəd qəbulu prosesi onlayn formatda keçirilib. Birinci mərhələdə CVU- nun sənədləri qiymətləndirilməsindən sonra ikili diplom proqramına qəbul üçün uyğun ola bilən potensial namizədlər CVU tərəfindən keçirilən müsahibə mərhələsinə dəvət olunub. Bu müsahibədən uğurla keçən namizədlər ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilə üzrə müəyyən edilmiş kvota əsasında proqrama qəbul edilib. Bundan sonra CVU-nun təqdim etdiyi siyahı təsdiq üçün ETN-ə göndərilib. ADPU-nun bir tərəfdaş kimi son mərhələdə iştirak etmədiyi ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilədə qeyd edilib. AK tərəflər arasında münasibətlərin bərabərhüquqlu inkişaf etməsini və tələbələrin çaşğınlığının aradan qaldırılmasını tövsiyə edir.

**1.2.** AK -yə təhsil proqramı üzrə ali təhsil müəssisəsində (ATM-də) əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyətinin bu ikili diplom proqramında fərqli olduğu bildirildi. İkili diplom proqramı Azərbaycan Respublikası Prezidentinin "2019-2023-cü illərdə Azərbaycan ali təhsilinin rəqabətqabiliyyətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Dövlət Neft Fondu tərəfindən maliyyələşdirildiyi və ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilə əsasında həyata keçirildiyi üçün müxtəlif illər üzrə ikili diplom proqramına qəbul edilən tələbə sayı da bu müqavilə çərçivəsində müəyyən edilib. Eyni zamanda, tələbə sayının ETN-nin və Azərbaycan təhsil sisteminin "Təhsil siyasəti və idarəetməsi" ixtisası üzrə ehtiyaclarının nəzərə alınaraq müəyyən edildiyi sahə baxışı zamanı məsul şəxslərlə müsahibələr zamanı qeyd edildi. Sahə baxışı zamanı təhsilanlar və məzunlarla aparılan musahibələrdə tələbələrin təhsil haqqı ilə bağlı yalnız son iki təhsil ilində bəzi problem yaşadıqları vurğulansa da, ikili diplom proqramı üzrə məsul şəxslərin verdiyi məlumata əsasən bu hansısa formada onların təhsilinə mənfi təsir göstərməyib. AK-yə yaranmış problemi aradan qaldırmaq məqsədilə ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqaviləyə xüsusi əlavənin edilməsinin nəzərdə tutulduğu bildirildi.

**1.3.** Sahə baxışı zamanı məsul şəxslərlə müsahibə zamanı və ÖH -da təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərinin formalaşmasında işəgötürən qismində ADPU, ETN və Azərbaycan Respublikasının Təhsil İnstitutunun (ARTİ) fikirlərinin nəzərə alınması qeyd edildi. Bundan əlavə, təhsilalanlar və məzunlarla müsahibələrdə bir neçə məzunun ETN-nin müxtəlif strukturlarına işlə təmin olunduğu bildirildi. Belə ki, məzunlardan biri ETN-də yeni yaradılan "Məktəbəqədər təhsil müəssisəsələri ilə iş" sektorunun müdiri vəzifəsinə, 2 nəfər məzunun ETN-in Beynəlxalq Əməkdaşlıq şöbəsində və daha 1 məzunun isə Təhsil islahatlarının koordinasiyası sektorunda məsləhətçi vəzifəsinə təyin olunduğu qeyd edildi. Məzunlardan biri isə ADPU-nun Strateji İnkişaf Mərkəzində çalışır. Bu məlumatlar təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakının 2023-cü ilin sonuna kimi vəziyyətinin göstəricisidir və AK bu vəziyyəti məqbul hesab edir.

Əlavə olaraq, AK ÖH-də Məzun profili (ingiliscə, "Graduate Learner Profile") adlı sənədin olduğunu müəyyən etdi. AK-ya verilən məlumata və CVU tərəfindən professor-müəllim heyətinin nümayəndələrilə aparılan müsahibə zamanı bu sənədin Rəhbər Komitə tərəfindən tərtib edildiyi öz təsdiqini tapdı. Məzun profilinin proqram üzrə kurikulum (təhsil proqramı) hazırlanarkən tələbələrə aşılanmalı olan bilik və bacarıqları modullar üzrə təyin etməyə, eləcə də məzunların gələcəkdə fəaliyyət sahələrini müəyyənləşdirmək üçün imkan yaratmaq məqsədi ilə hazırlandığı qeyd edildi. AK Məzun profili adlı sənədiın ADPU-nun Elmi Şurasında müzakirə edilib təsdiqlənməsini tövsiyə edir.

## 2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması

**2.1.** Tanınmış kvalifikasiyanın aid olduğu təhsil səviyyəsinin düzgün müəyyən edilməsi ilə bağlı Akkreditasiya Komissiyasına verilən məlumat bu ixtisas üzrə təhsil alan tələbələrin əksəriyyətinin humanitar və sosial elmlər sahəsi üzrə bakalavr təhsilinə malik olan şəxslər olduğu üçün statistika yönümlü fənlərin tədrisində aşağı səviyyədən başlamaq məcburiyyətinin yaranmasıdır. 8 Dekabr 2023-cil tarixli hesabatda qeyd edilib ki, sonuncu 2022-2023-cü tədris ilində 4 tələbənin 2 fənn üzrə kəsrləri olmuşdiur. Onlardan 3-ü bir fənn (GWU, Advanced Statistics) üzrə qeyri-müvəffəq olub. Sahə baxışı zamanı AK-nin apardığı müsahibələrdə tələbələr narazılıq ifadə edib qeyd etdilər ki, ASPU 02 Riyaziyyat və Statistika/ Math and Statistics, EDU 6116 Təhsil Statistikası/ Educational Statistics fənləri oxşar fənlər olduğu üçün, CVU tərəfindən tədris edilən Advanced Statistics həm kontentin ağırlığı, həm də müəyyən mənada eynilik baxımından tədris proqramında əlavə yük olub və onların müvəffəqiyyətinə mənfi təsir edib. AK -yə ikili diplom proqramında 4 il müddətində cəmi iki tədris planı tərtib olunduğu bildirildi. ADPU-nun Elmi Şurasının 7 noyabr 2021-ci il tarixli (Protokol N 1) iclasında təsdiq olunmuş tədris planında 6 kreditlik EDUC 6100 Eksperimental Kurs /Experimental course mövcud olub. Lakin proqram başlandıqdan sonra 2023-cü ildə 1 fənn dəyişikliyi baş verdiyi üçün tədris planı yenilənib. Beləliklə, 5 Sentyabr 2023-cü ildə CPED

6305 Kurrikulumun əsasları fənni tədris planına əlavə edilib. Tədris müddətində ikili diplom proqramından hər hansı bir tələbənin digər bir təhsil müəssisəsində olan təhsil proqramına köçürülməsi halı da baş verməyib. AK-yə bildirildi ki, ADPU-CVU ikili diplom proqramında CVU tərəfindən tədris edilən "Education və Human Development" proqramı üzrə iki kəsirin olması səbəbindən yalnız bir tələbənin cari ilin yaz semestrindən təhsilini ADPU-nun Magistratura səviyyəsində Menecment ixtisasının Təhsilin təşkili və idarə olunması ixtisaslaşması üzrə təhsil alması üçün Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə müraciət edilib. Lakin Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən 01.03.2024 - ci il tarixində göndərilən 68-ATM/2-85/24 nömrəli cavab məktubunda tələbənin təhsilini proqramda davam etdirməsinin mövcud olan qaydalara uyğun olmadığı bildirilib və tələbə ADPU-nun 06.05.2024 tarixli № 2/49 əmrinə əsasən magistraturadan xaric edilib. ADPU-nun 06.05.2024 tarixli № 2/49 əmri AK-yə təqdim edilib. Bundan əlavə, sənədlər arasında tələb olunan yerə təqdim etmək üçün bir tələbənin ikili diplom proqramının Menecment ixtisaslaşması üzrə təhsil aldığını təsdiq edən arayış nümunəsi, başqa bir tələbəyə aid Menecment ixtisası üzrə iki kursdan qazanılan kreditləri əks etdirən transkript nümunəsi və s. bu kimi sənədlər mövcuddur. AK tanınmış kvalifikasiyanın aid olduğu təhsil səviyyəsində düzgün müəyyən edilməsini məqbul hesab edir.

**2.2.** Sahə baxışı zamanı tanınmış kvalifikasiya üzrə əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcminin düzgün müəyyən edilməsi ilə bağlı proqramın tətbiqi müddətində heç bir müraciətin olmadığı bildirildi və AK bu meyar üzrə işin təşkilini məqbul hesab edir.

**2.3**. Tanınmış kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması ilə bağlı Akkreditasiya Komissiyasına bildirilib ki, proqrama qəbul zamanı tələbələrin əvvəlki təhsilinə dair sənədlərin (diplom və transkriptlərin) CVU tərəfindən qiymətləndirilməsi aparılıb. ADPU-nun tanınmış kvalifikasiyaya dair sənədin qiymətləndirilməsinin aparılmadığının səbəbi kimi bu işin DİM-in magistraturaya qəbul imtahanı zamanı aparıldığını və ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilədə CVU-nun ikili diplom proqramına tələbələrin qəbul edilməsində sonuncu müsahibə mərhələsindən sonra hansı tələbələrin ikili diplom proqramına qəbul edilir qərarını verib, siyahını təsdiq edilməsi üçün ETN-ə göndərməsi ilə əsaslandırdı. AK-yə ikili diplom proqramının spesifikliyini nəzərə alaraq bu meyar üzrə tələbələrə fərdi yanaşma strategiyasının tətbiq edildiyi bildirildi. AK ADPU-ya ikili diplom proqramında tətbiq edilən fərdi yanaşma strategiyasının (strategiya mütləq qaydalar toplusudur) təhlilinin aparlmasını və bu strategiyanın göstəricilərinin müəyyən edilməsini tövsiyə edir.

### 3. Təhsil proqramı üzrə tədrisin təşkili

Təhsil proqramı üzrə tədrisin təşkili ADPU ilə CVU arasında əvvəldən bağlanmış müqavilə əsasında həyata keçirilib və bu məlumat ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilədə öz əksini tapır. Tədris planı ADPU-nun Elmi Şurasının 7 noyabr 2021-ci il tarixli (Protokol N 1) iclasında təsdiq edilib.

*ÖH-də və sahə səfəri zamanı müsahibələrdə qeyd edildi ki, "Proqramda fənlər modul tipli olduğu üçün təlim prosesində vahid cədvəl tərtib etmək mümkün olmur. CVU dərsləri 2 həftə ərzində CVU müəllimlərinin Bakıya səfəri əsasında tərtib edilir ki, tədrisin fasiləsizliyi təmin edilsin. İntensiv CVU dərsləri öncəsi və sonrası 1 həftəlik fasilə verilir."* CVU tərəfindən olan professor-müəllim heyətinin Azərbaycana yalnız iki həftəlik müddətdə səfər etmə səbəbindən, dərslər adətən həftədə 4 yaxud 5 dəfə olur. Adətən CVU-nun professor-müəllim heyəti tədris etdikləri fənlərdən əvvəl dərslərə hazırlıq üçün bir həftə ayırır (pre-reading/preparation) və həmin bir həftə müddətində tələbələr onlara təqdim edilmiş oxu materiallarını nəzərdən keçirir. Həmin fənn üzrə tapşırıqların yerinə yetirilməsi digər bir həftəlik zaman kəsiyində tələbələrin tədqiqatları ilə tamamlanır. Beləliklə, ADPU tərəfdən dərslərin planlaşdırılması və keçirilməsi əsasən CVU cədvəlinə uyğunlaşdırılır. Bu zaman ADPU tərəfindən təqdim olunan dərslərin arasında məcburən fasilə yaranır. Bu məsələni həm ikili diplomun ADPU tərəfdən olan rəhbər, həm tələbələr, eləcə də müəllimlər mənfi hal kimi qiymətləndirir. ADPU-dan çeviklik tələb edən CVU bir tərəfdaş kimi özü belə bir addımı atmır.

İkili diplom proqramında ADPU ştatda bir müəllim ilə təmsil olunur. Həmin müəllim, həm də proqram direktoru olaraq, administrativ məsuliyyət və öhdəliklər daşıyır. Bundan əlavə, həmin müəllim akademik məsləhətçi kimi ikili diplom proqramının tələbələrinə dəstək olur. Proqramda 7 müəllim isə saathesabı qaydada tədrisə cəlb olunur. Bu səbəbdən proqram icra olunduğu gündən bəri ADPU-dan digər professor-müəllim heyətinin bu proqramda tədris etməsi təmin edilməyib. 7 saathesabı müəllim müxtəlif təşkilat və təhsil idarələrindən tədrisin təşkilinə cəlb olunur. ADPU-nun rəhbərliyi ilə görüşdə müxtəlif səbəblər göstərilsə də, ADPU-nun professor-müəllim heyətinin CVU standartlarına uyğun dərslər təşkil etmək və tədris prosesinə inteqrasiya olunması üçün imkanlar yaradılmayıb. Bu məsələnin müqavilədə öz əksini tapmadığı qeyd edilsə də, ADPU-nun professor-müəllim heyətinin xarici dil bilik və bacarıqlarının olmaması, həm də bu məsələdə az maraqlı olduğu dönə-dönə vurğulandı və bütün hallarda bunun maliyyə ilə bağlı olduğu qeyd edildi. ADPU gələcək tədris illərində ikili diplom proqramında tədrisin təşkili prosesinə cəlb edilə biləcək insan resuslarının yaradılması və təkmilləşdirilməsi işini qurmayıb. CVU ilə əməkdaşlığı nəzərə alsaq, bu ADPU üçün yeni imkanların yaranması və beynəlxalq təcrübədən istifadənin əlçatanlığına nail olmaq demək idi. AK ADPU-ya Azərbaycan Respublikasında təhsil qanunvericiliyinin daim təkmilləşdirilməsi və ömürboyu təhsilin dəstəklənməsi məqsədilə, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına dövlət dəstəyinin olduğu bir dövrdə cari ikili diplom proqramının tərəfdaşı olan CVU-nun da imkanlarından istifadə etmək yollarını araşdırmağı, ADPU-nun akademik heyətinin peşəkar inkişafına dəstəyin göstərilməsini, onların xarici dil bilik və bacarıqlaırının yaradılması və təkmilləşdirilməsi istiqamətində lazımı dəstəyin təmin edilməsini və onların ikili diplom proqramında keçirilən fənlərin tədrisinə cəlb edilməsini tövsiyə edir.

AK-yə verilən şifahi məlumatlarda, həm də ÖH-də ikili diplom proqramında tədris prosesinın mütəmadi olaraq monitorinq edilməsi qeyd edilsə də, tələbələrin təhsil proqramı haqqında rəylərinin öyrənilməsi, onların təklif və şikayətlərinin dinlənilməsi üçün fərqli istiqamətlərdə rəy sorğularının tərtib edilməsi, dərslərin müşahidə edilməsi, dərs müşahidələri zamanı müşahidə alətlərinin

yaradılmasına ehtiyac var. Bundan əlavə tədris prosesinə cəlb edilən 7 saat hesabı müəllimin fəaliyyətinin dəyərləndirmə aləti, müəllimlərə geri dönüş edilmə nümunələrinin hazırlanmasının (feedback) təmin edilməsi tövsiyə olunur.

**3.1.** Akkreditasiya Komissiyasına verilən məlumata görə təhsil proqramı üzrə tədris planları kredit sisteminin tələblərinə uyğun tərtib edilib. İkili proqram tərəfdaş ABŞ universiteti ilə birgə təşkil edildiyi üçün ali təhsil səviyyəsində mövcud olan digər proqramlardan öz spesifikliyi ilə fərqlənir. Proqramda seçmə fənlərin olmaması, tədris planına ümumi fənlərinin daxil edilməməsi, magistrlik dissertasiyasiyanın hazırlanmaması və proqramın CVU-nun müəyyən etdiyi "Capstone layihəsi" ilə tamamlanması təcrübəsinin tətbiq edilməsi onu fərqləndirən xüsusiyyətlərdir.
Qeyd edilən məqam ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilənin "The Program" hissəsinin b. "Curriculum" bəndində öz əksini tapıb. Bu öhdəliklə əlaqədar AK-yə təqdim edilən və 2022-ci ilin yanvar-dekabr aylarını əhatə edən illik hesabatında (4-cü bənd) bu məsələ xüsusilə vurğulanaraq tərəflərin öhdəliklərinin yerinə yetirməməsi ilə bağlı məlumat qeyd edilib". Tədris proqramında CVU-nun capstone layihəsinin yazılmasında hər semestr üzrə müəyyən fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulsa da, buna ciddi şəkildə əməl olunmur. Müvafiq hesabatda qeyd olunub ki, "*ümumən capstone layihələrinin icrası ilə bağlı keyfiyyətə diqqətin artırılması ilə bağlı məsələ Vaşinqtonda keçirilən sonuncu Rəhbər Komitənin iclasında bir daha qaldırıldı*." AK ADPU və CVU-ya "Capstone layihəsi" nin yazılması prosesində üzərlərinə düşən öhdəliklərin müqavilənin tələblərinə uyğun olaraq yerinə yetirilməsini təmin etmələrini tövsiyə edilir.

**3.2.** Akkreditasiya Komissiyasına bildirildi ki, təhsil proqramı üzrə ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki ARTİ tərəfindən ETN-nin göstərişi ilə hazırlanıb və ADPU-nun Elmi Şurası tərəfindən təsdiqləndikdən sonra icra edilib. Akkreditasiya Komissiyasına tədris planları təqdim edildi. Təhsil proqramı üzrə ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti qənaətbəxşdir.

**3.3.** Təhsil proqramı üzrə tədris planında məcburi və seçmə fənlərin bölgüsü aparılmır. Bu bölgünün aparılmaması səbəbi kimi proqramda məcburi və seçmə fənlərin tədrisi üçün imkanların mövcud olmadığı qeyd edildi. Bu vəziyyətin proqrama qəbul olunan tələbə sayının məhdudluğu və maliyyələşdirmə şərtlərinə görə yarandığı vurğulandı. AK-yə fənlərin siyahısı təqdim edildi. AK tələbələrin seçim imkanlarını və maraq dairələrini məhdudlaşdırmamaq məqsədilə ikili diplom proqramının hesabatlılıq, dayanıqlıq, davamlılıq və çevikliyini artırmaq üçün tədris proqramının təkmilləşdirilməyi tövsiyə edir.

**3.4.** Təhsil proqramı üzrə tədris planında ümumi və ixtisas fənlər arasında balansın saxlanılması izlənilmir, çünki tədris planında nəzərdə tutulan bütün fənlər birbaşa ixtisas fənləridir. Bu səbəbdən, ümumi və ixtisas fənləri bölgüsü mövcud deyil. Təhsil proqramına daxil edilmiş fənlər birbaşa ixtisas fənləri olduğu üçün, əsas məqsədi təhsil siyasətçisi və meneceri yetişdirən

ikili diplom proqramında təhsilalanlar və təhsilverənlərin müxtəlifliyini nəzərə alaraq, AK təhsil proqramının məzmununda xüsusilə təhsildə idarəetmə ilə bağlı dərslərin sayının artırılmasını tövsiyə edir.

**3.5.** Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyətilə bağlı, ÖH-də *"fənlərin təlim nəticələri və keçirilən mövzuların uyğunluğu arasında koordinasiyanın təmin edilməsi məqsədi ilə fənn müəllimləri arasında ünsiyyətin yaradılması, əməkdaşlıq mühitinin təmin edilməsi nəticəsində fənlərin davamlılığı təmin edilməklə yanaşı mümkün təkrarlara yol verilməsinin qarşı alınır, fərqli bacarıqların inkişafına nail olunur*" kimi qeydlər var. Bundan əlavə, ÖH-də *"milli proqramlardan fərqli olaraq ikili proqramda çox geniş spektrli ixtisas kompetensiyalarının qazanılması təmin edilir"* kimi məlumat mövcuddur. AK fənlərin təlim nəticələrinin ixtisasın təlim nəticələri ilə əlaqələndirilməsinə dair məlumatların toplanılması, təhlili, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsini tövsiyə edir.

**3.6.** Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti ilə əlaqədar ÖH-də qeyd edilir ki, *"sillabuslarda əksini tapan təlim nəticələri və onlara fənlərin tədrisi zamanı nail olunması üçün hər semestrinin sonunda fənləri tədris edən müəllimlərlə, eləcə də fənnin tədris olunduğu qruplarda təhsilalan tələbələrlə müzakirələr keçirilir və nəticədə sillabusa əlavələr edilir, onun təkmilləşdirilməsi üçün müəllimlərlə proqram rəhbərliyi arasında ünsiyyət və əməkdaşlıq təmin olunur."* Təqdim olunan sillabuslara nəzər yetirildiyi zaman fənlər üzrə təlim nəticələrinin öz əksini tapdığı müşahidə edildi.

**3.7.** Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti də ikili diplom proqramında fərqlidir. Verilən məlumatda proqram üzrə dərs cədvəli tərtib edilərkən dərs yükünün sıxlığının nəzərə alındığı bildirilir. Akkreditasiya Komissiyasına təqdim olunan dərs cədvəlləri 2023-cü ilin yaz, yay və payız semestrlərini özündə əks etdirir. Əvvəlki tədris illərinin cədvəlləri təqdim edilmədiyi üçün dəyişikliklərin (CVU-nun dərsləri Modullar əsasında təqdim etməsi semestrlərin müddətinin hər dəfə fərqli olması ilə nəticələnə bilər) və çevikliyin hansı dərəcə olmasını izləmək mümkün olmadı. Adətən, ADPU tərəfindən təqdim olunan dərslərin həftə ərzində 2-3 dəfə keçdirildiyi və bunun dərsdən kənar məşğələlərə qatılmaq imkanı yaratdığı qeyd edildi. Lakin CVU tərəfindən təqdim olunan dərslər 2 həftə ərzində 4-5 dəfə olmaqla keçirildiyi üçün ADPU-nun təqdim etdiyi dərslərdə fasilələr yaranır. Bunun da tam ştatda təhsil alan tələblər üçün gərginliklər yaratdığı tələbələr tərəfindən xüsusi olaraq qeyd edildi. CVU tərəfindən keçilən bəzi dərslərdə tələbə sayının çoxluğunun tələbələrə auditoriyada ayrılmalı olan vaxtın azalmasına təsir etdiyi bildirildi. Akkreditasiya Komissiyasının üzvləri dərsləri müşahidə etdikdə bu vəziyyətlə tanış oldular. Ümumi olaraq, proqram rəhbərliyinin qeyd etdiyi kimi, təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırması ikili diplom proqramının spesifikliyinə görə nəzərdə tutulmur.

**3.8.** ÖH-də qeyd edildiyi kimi təhsil proqramı üzrə tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcud olmaması ikili diplom proqramının xüsusiyyətlərindən irəli gəlir.

**3.9.** İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı mövcud olmaması proqramın spesifikliyi ilə əlaqələndirilir.

**3.10.** Təhsil proqramı üzrə müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris plani saathesabı müəllimlərin dərs yükünün kifayət qədər olmadığı səbəbindən mövcud deyil kimi qeyd edildi.

**3.11.** Təhsil proqramında tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti) ikili diplom proqramında izlənilmir. ÖH-də ikili diplom proqramında fənlərin formal olaraq qeyd edilən tədris növlərinə bölgüsünün qeyri-mümkün olduğu, dərsdə interaktivlik təmin edilməklə tədris növlərinin sintez halında tətbiq edildiyi qeyd edilib. Akkreditasiya Komissiyasının üzvləri dərsləri dinlərkən dərsdə interaktivlik əsasında tədris növlərinin sintez edildiyini müşahidə edib.

**3.12.** Təhsil proqramı üzrə məsləhət xidmətinin təşkili hər bir qrupla bağlı aktiv "Whatsapp" qrupları vasitəsilə aparıldığı bildirildi. ÖH-də hər bir fənni tədris edən müəllimdən tələb olunan şərtlərdən birinin də məsləhət saatlarının olması qeyd edilsə də, müəllim və tələbələrlə müsahibə zamanı aydın oldu ki, belə bir xüsusi cədvəl mövcud deyil. Müəllimlər cədvəl üzrə dərsləri olan günlərdə dərsdən əvvəl auditoriyaya gəlirlər və əgər hər hansı bir tələbənin sualı və ya çətinliyi varsa, elə orada müzakirə edirlər. ÖH-də əlavə olaraq tələbələrin həm öncədən yazılmaqla, həm də birbaşa olaraq proqram baş direktoru ilə görüşmək imkanının olduğu qeyd edilib və proqramın direktoru, həmçinin tələbələr də müsahibələrdə bu məqamı vurğuladı. Müəllimlərin cədvəl üzrə dərsləri olan günlərdə dərsdən əvvəl auditoriyaya gəlib hər hansı bir tələbənin sualı və ya problemini müzakirə etməsi, problemin həssaslığı baxımından və etik normaların da gözlənilməsi nəzərə alındıqda qənaətbəxş sayıla bilməz. İkili diplom proqramının dərs yükünün və ADPU tərəfindən müəllimlərin saat hesabı əsaslarda işlədiyini nəzərə alsaq, belə bir şəraitdə tələbəyə məsləhət xidmətinin verilməsi keyfiyyəti yüksək ola bilməz. Əgər ÖH-də müəllimdən məsləhət saatlarının təşkil edilməsi tələb kimi qeyd edilirsə, AK bu tələbə əsaslanaraq məsləhət saatlarının vaxtının və keçirildiyi fiziki və ya virtual məkanın müəllimlərin sillabuslarına əlavə edilməsini tövsiyə edir.

**3.13.** Təhsil proqramına uyğun müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili hər bir fənn üzrə tapşırıqların əsas hissəsi kimi nəzərdə tutulur. Bəzi tapşırıq nümunələri Akkreditasiya Komissiyasına təqdim edilib.

**3.14.** Təhsil proqramı üzrə təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin aparılması və vəziyyəti haqqında AK-yə məlumat verilib. Tərəfdaş universitetin rəhbərliyinin fikrinə görə, təcrübə işinin (Internship) təşkili təhsilalanların maraqlarına müəyyən dərəcədə uyğunlaşdırılır, müxtəlif təhsil müəssisələrində və ya beynəlxalq təşkilatların Bakıda yerləşən idarələrində aparılır. Lakin təcrübə işinin təşkili o qədər də asan olmur. Təcrübə işinin (Internship) təşkil edilməsində təhsilalanlara müəyyən qədər də olsa yardım edilir və ya tələbələr özləri də öz imkanları və əlaqələri vasitəsilə bu təcrübəni qazanırlar. Lakin həm tələbələr, həm də proqrama cavabdeh olan məsul şəxslər gərgin iş qrafikinin tələbələrin bir çox hallarda dərslərdə iştirakına, tapşırıqların gecikməsinə səbəb olduğu və çətinliklər yaratdığını bildirdi. Əsasən də təcrübə üçün təhsil müəssisələrində, həm yerli və həm də beynəlxalq təşkilatlarla əlaqə yaratmaq və onların iş rejiminə uyğunlaşmaq tələbələrin qarşılaşdıqları çətinliklər kimi qeyd edildi. İki tələbənin imzalı təcrübə müqaviləsi (İnternship Agreement) AK-yə təqdim edilib.
Proqramın icrası müddətində sahə üzrə mütəxəssislərlə görüşlər, onların dərslərə dəvəti və eləcə də, sahələrə səfərlərinin (field trip) təşkil olunmasının təhsilalanların ixtisasları ilə bağlı bilik və bacarıqlarının təkmilləşdirilməsinə müsbət təsir etdiyi qeyd edildi. İkili diplom proqramının təhsilalanlarının digər ali təhsil müəssisəsinə bir neçə saatlıq səfərləri nümunə olaraq göstərildi.

**3.15.** Təhsil proqramı üzrə stajkeçmə ikili diplom proqramında həyata keçirilmir. ADPU tərəfindən 8 müəllimin 7-si kənardan saathesabı əsasında cəlb olunmuş müxtəlif təhsil institutlarını və dövlət idarələrini təmsil edən müəllimlərdir. Onlar üçün heç bir stajkeçmə tələbi qoyulmayıb.

**3.16.** Təhsil proqramı üzrə kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işi ikili diplom programının bir qədər fərqli formatı olduğu üçün bu məsələ hər fənn daxilində tələbələrin tədqiqatyönümlü tapşırıqlar yerinə yetirməsi ilə tənzimləndiyi bildirildi. Ənənəvi təhsil proqramlarında olan standart kurs layihəsi əvəzinə müəllimlərin tədris etdikləri fənlərin xüsusiyyətlərindən asılı olaraq araşdırma və tədqiqat mövzuları və onlara uyğun tapşırıqlar verdiyi bildirildi. Bu tapşırıqların fərdi və ya qrup şəklində icra edildiyini həm müəllimlər, həm də tələbələr müsahibələr zamanı təsdiqlədilər. Akkreditasiya Komissiyasına fərqli formatda və məzmunda olan (layihə, refleksiya tapşırığı, tədqiqat əsaslı yazı nümunəsi, ədəbiyyat xülasəsi) bir neçə tapşırıq nümunələri təqdim edildi. Bundan əlavə, komissiya üzvləri dərsləri müşahidə edərkən ümumi və kiçik qruplar şəklində yerinə yetirilən tapşırıqları izlədi və müzakirələri dinlədilər. Bu indikator üzrə işin təşkili qənaətbəxşdir.

**3.17.** Təhsil proqramına uyğun magistr dissertasiyasının hazırlanması və müdafiəsi ikili diplom proqramında tam fərqlidir. Əksər fənlərin tədrisi tədqiqat yönlü (*research intensive courses*) istiqamətdə təşkil edildiyi qeyd edildi və proqramın sonunda magistr dissertasiyasının yazılmasının nəzərdə tutulmadığı vurğulandı. Proqramın 10 fənn CVU və 10 fənn ADPU tərəfindən təqdim olunmaqla tədris olunduğu bildirildi. Hər bir fənn tədris edilərkən, tələbələrə

həm fərdi, həm də qrup halında tədqiqat layihələri icra etmək tələbi qoyulur. Bu proqramın sonunda isə iki universitet arasında bağlanan müqaviləyə əsasən ca*pstone layihəsi* təqdim edilməlidir. Capstone layihəsinin icrasının CVU tərəfindən həyata keçirilirdiyi bildirildi. Proqramın illik hesabatında capstone layihəsinin yazılması ilə bağlı bəzi çatışmazlıqların olduğu qeyd olunub. AK Capstone layihələri ilə bağlı işlərin təkmilləşdirilməsinə ehtiyac olduğunu qeyd edir və bu işin daha səmərəli təşkil edilməsini tövsiyə edir.

**3.18.** Akkreditasiya Komissiyasına verilən məlumata əsasən təhsil proqramı üzrə imtahan sessiyasının təşkili tərəfdaş CVU-nun və müasir təlim və tədris prinsiplərinə uyğun, müəllimlərin akademik azadlığı nəzərə alınaraq və həm də fənlərin spesifikasına uyğun olaraq təmin olunur. Fənlər modul tipli formada olduğu üçün proqramda imtahan cədvəli və imtahan sessiyası mövcud deyil. Qeyd edildi ki, sonuncu dərs günü müəllimin sillabusunda nəzərdə tutduğu yekun təqdimat forması ilə yekunlaşır, ya da müəllimin müəyyən etdiyi son təqdimetmə tarixində (deadline) tələbələr fənn üzrə öyrəndiklərini yekun təqdimat formasında hazırlayıb təqdim edirlər.

**3.19.** ADPU və CVU arasında 2020-ci ilin 10 fevral tarixində imzalanmış müqavilədə və eləcə də təhsil proqramında qeyd edildiyi kimi ikili diplom proqramında yay semestri təşkil edilmir. (Təhsil müddəti: 2 il (4 semestr)). Lakin müsahibələrdə bildirildi ki, GWU tərəfdən olan heyətin tədris etdiyi fənnlər onların iş qrafikinə uyğun tənzimləndiyi üçün, yay semestrində (iyul ayında) CVU tərəfindən (əvvəlcədən qeyd edildiyi kimi, CVU fənləri modullarla tədris edir) proqramın tərkib hissəsi olaraq "Introduction to Program Evaluation" fənnin tədrisi təmin edilib. Eyni ilə ADPU tərəfindən təhsil proqramında təqdim edilən"Təhsildə innovasiya və sahibkarlıq /İnnovations and Entrepreneurship in Education" fənni də yay semestrində tədris edilib. Məsul şəxslərin AK-yə verdiyi məlumata əsasən yay semestrində iki fənnin tədrsi edilməsinin ikili diplom proqramının spekifliyindən irəli gəlib və qəbulolunan hesab edilə bilər.

**3.20.** Təhsil proqramı üzrə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası 2022-2023-cü tədris ilində 4 tələbənin hər birinin 1 fəndən, 2021-2022-ci ildə isə bir (1) tələbənin 2 fənn üzrə (1-i CVU tərəfindən, 1-si ADPU tərəfindən təqdim olunan fənn olmaqla) qeyr-kafi qiymətin alındığı müşahidə edilib. Bundan əlavə, 2020-2021-ci ildə də 1 tələbənin 2 kəsri yaranıb (1-i CVU tərəfindən, 1-i ADPU tərəfindən təqdim olunan fənn olmaqla). CVU-dan iki kəsri olan tələbənin proqramdan uzaqlaşdırılması ilə bağlı məktub göndərilib. Bu halın CVU-nun daxili qaydalarına görə tənzimləndiyi vurğulandı.

**3.21.** Statistik göstəricilər baxımından təhsil proqramı üzrə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası 2020-2021 və 2021-2022-ci ildə bir tələbənin iki kəsirinin yaranması ilə müşahidə edilib. Sonuncu tədris ilində 2022-2023-cü ildə 4 tələbənin 2 fənn üzrə kəsrlərinin olduğu bildirildi. Beləliklə, sadəcə 3 tələbə bir fənn (CVU, Advanced Statistics) üzrə müvəffəq olmayıb. Akkreditasiya Komissiyasına bildirildi ki, tələbələrin bu fənnin tədrisi ilə bağlı narazılıqlarının olmasına baxmayaraq, CVU tərəfi yaranmış kəsirlərin tələbələrin performansları ilə bağlı olduğunu qeyd edib.

**3.22.** Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti tərəfdaş universitetlərin fərqli profillərə malik olması baxımından məhdudiyyətlərlə qarşılaşır. İkili diplom proqramı hər iki tərəfdən 4 nəfərin təmsil olunduğu Rəhbər Komitə tərəfindən idarə edilir.

## 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları

**4.1.** İkili diplom proqramı üzrə fənlərin tədrisi interaktiv və innovativ tədris metodlarından istifadə etməklə həyata keçirilir. Fənlərin tədrisində keys təhlili, qrup müzakirələri və fikir mübadiləsi, debatların təşkili, fərdi və qrup təqdimatı, simulyasiyaların tətbiqi (Riyaziyyat və Statistika fənni), layihə əsaslı öyrənmə, rol bölgüsü (Ali təhsildə idarəetmə fənni), portfolionun hazırlanması kimi metodlardan (Təhsildə innovasiya və sahibkarlıq fənni) geniş şəkildə istifadə olunur. Tədris prosesində istifadə edilməsi nəzərdə tutulan tədris metodları haqqında ətraflı məlumat fənn sillabuslarında öz əksini tapır və müəllimlər tərəfindən ilk dərsdə tələbələrə çatdırılır.

**4.2.** ÖH-də ikili diplom proqramında tələbəyönümlü öyrənmə tədris prosesinin təşkilinin prioritet istiqaməti kimi qeyd edilir. Akkreditasiya Komissiyası tərəfindən ADPU-da 6 fənn üzrə keçirilmiş dərs müşahidəsi zamanı dərslərdə tələbəmərkəzli, problem yönümlü və səriştə əsaslı, həmçinin, nəzəriyyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarının istifadəsi müşahidə edildi. İkili diplom proqramı üzrə tədris metodlarında tələbə yönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyətini qənaətbəxş hesab etmək olar.

**4.3.** İkili diplom proqramı üzrə tədrisin əyani təhsilalma formasında keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, ikili diplom proqramının özünütəhlil hesabatında qeyd olunduğu kimi pandemiya zamanı proqramın ilk üç semetri ərzində CVU-nun müəllimlərinin Bakıya səfəri mümkün olmadığına görə tədris prosesi onlayn formatında təşkil olunub.

**4.4.** Fənlərin əksəriyyətində, o cümlədən “Təhsildə innovasiya və sahibkarlıq” fənni çərçivəsində real biznesin qurulması üçün biznes planının hazırlanması və investorlara təqdim olunması, “Ali təhsildə idarəetmə” fənni çərçivəsində universitetin inkişaf strategiyasının hazırlanması və Qəyyum Şurası qarşısında müdafiə təcrübəsini tətbiq etməklə fənlərin daha dərindən öyrənilməsi, motivasiya yaradılması və öhdəliyin götürülməsinə nail olunması təmin edilmişdir. Tələbələrlə müsahibə zamanı müəllimlərin onlara motivasiyanın təşkili məqsədilə dərslərə öncədən suallar hazırlayaraq gəlməyi və keçilən mövzu üzrə nəticələr çıxarmağı tövsiyə etdiyi müəyyən edildi.

Bununla yanaşı, ikili diplom proqramı üzrə təşkil olunan dərslərin daha maraqlı və yerli təcrübə əsasında öyrədilməsinin təmin olunması məqsədilə mütəmadi olaraq qonaq məruzəçilər dəvət

olunur. Eyni zamanda bəzi fənlər çərçivəsində səfərlər (məsələn, STEAM İnnovasiya Mərkəzi) təşkil olunur.

**4.5.** Təhsil proqramı üzrə tədris səviyyələrindən və tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyətini qənaətbəxş hesab etmək olar. Müsahibələr zamanı müəllimlər qeyd ediblər ki, tələbələrin fərqli baza ali təhsilini nəzərə alaraq, onlar uyğunlaşdırılmış tədris üsullarından istifadə edirlər. Eyni zamanda, müəllimlər qrup tapşırıqları yerinə yetirməkdə maraqlı olmadıqları halda tələbələrə fərdi tapşırıqlar hazırlamağı tövsiyə edirlər. Bununla yanaşı, müəllimlər fənlərin mənimsənilməsində çətinlik çəkən tələbələrlə dərsdən əvvəl görüşərək qaranlıq qalan məqamları yenidən izah edir, tələbələrin suallarını cavablandırırlar.

**4.6.** İkili diplom proqramı üzrə tədris prosesində aktiv öyrənməni təşviq edən texnoloji imkanların vəziyyətini qənaətbəxş hesab etmək olar. Belə ki, tədris prosesi üçün nəzərdə tutulan 3 auditoriya internetə çıxış imkanı olan kompüter və proyektorlarla təchiz olunur. Eyni zamanda, daha sürətli internetlə təmin olunma səmərəliliyin daha da artırılması baxımından zəruridir. Bununla yanaşı, ikili diplom proqramının özünütəhlil hesabatında qeyd olunduğu kimi, virtual reallıq, süni intellekt kimi müvafiq innovativ texnologiyalardan, həmçinin öyrənmə prosesini təkmilləşdirmək üçün təhsil tətbiqlərinin istifadəsi məqsədəuyğundur.

**4.7.** Akkreditasiya komissiyasının üzvləri müşahidə edilən müxtəlif dərslərdə müəllimlərin yeni tədris metodlarından istifadə etməklə interaktiv şəkildə dərslər keçdiyini qeyd etmişdir. Belə ki, müəllimlər dərs zamanı müzakirənin təşkil edilməsi, qrup işlərinin aparılması və layihə əsaslı öyrənmənin tətbiqinə üstünlük verirlər.

**4.8.** Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyətinə dair ikili diplom proqramı üzrə ÖH-də tədris metod və üsullarının mütəmadi olaraq yalnız professor-müəllim və tələbələrlə qarşılıqlı şəkildə müzakirə olunduğu qeyd olunur. Bununla bağlı sahə səfəri zamanı sözügedən aparılmış sorğuya istinad olunduğu qeyd olunsa da, sorğu nəticələri, yaxud təhlillər Akkreditasiya Komissiyasına təqdim olunmadı.

## 5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları

**5.1.** İkili diplom proqramı üzrə öyrənmə və tədris ehtiyaclarını ödəyə bilən, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan bir neçə təlim və tədrisin elektron idarəetmə sistemi tətbiq olunur. CVU-nun professor-müəllim heyəti “Blackboard” platformasından, ADPU-nun bəzi müəllimləri “TEAMS” platformasından, bir müəllim isə NEO LMS platformasından istifadə edir. Müəllimlər “TEAMS” platformasından istifadə etsə də, daha çox sillabus və oxu materiallarının yüklənilməsi imkanının istifadəsinə üstünlük verirlər.

**5.2.** İkili diplom proqramı üzrə tədris prosesi Fətəli xan Xoyski 109 ünvanında yerləşən Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində təşkil olunur. Həmin binada müasir təlim prosesi aparmaq üçün proyektor, internetə çıxışı olan kompüter və digər zəruri texnikalarla təchiz olunmuş 3 auditoriya (bəzi dərslər akt zalında keçirilir) ayırılıb. Mövcud auditoriya fondu böyük qruplarda (40 nəfər) dərslərin keçirilməsi və ya qrup işinin səmərəli təşkil olunmasına tam imkan vermir.

**5.3.** İkili diplom proqramı üzrə ÖH-də müəllimlərin tələbələrdən dərsdən öncə oxuduqları materiallardan ən maraqlı hissələrlə bağlı TEAMS-də rəyin yazılmasını tələb etdikləri qeyd olunsa da, bu epizodik xarakter daşıyır və tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platforması və elektron jurnal mövcud deyil. Eyni zamanda, müsahibə zamanı yerli müəllimlərin tədris etdiyi fənn üzrə davamiyyətə dair qeydlər apardığı müəyyən edildi.

**5.4.** Tədris prosesi üçün nəzərdə tutulan 3 auditoriyanın hər biri internetə çıxış imkanı olan proyektor və kompüterlə təchiz olunur. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlər və texniki təminat müxtəlif səviyyələrdə təşkil olunub. CVU-nun “Writing Center” və “Mental Health Services” mərkəzləri tərəfindən müraciət edən tələbələrə onlayn şəkildə dəstək xidmətləri təklif olunur. ADPU-nun bəzi müəllimləri tərəfindən TEAMS platformasına fənn sillabusu və elektron dərsliklərin “pdf” şəklində yüklənilməsi təmin olunur.

**5.5.** İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti ilə bağlı ikili diplom proqramı üzrə ÖH-də qeyd olunduğu kimi dərslərin keçirildiyi Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində kompüterlər həm internet kabel, həm də WIFI vasitəsilə 20 Mbps-ə qədər internetə qoşulma imkanına malikdir. Eyni zamanda, ayrı kompüter laboratoriyası quraşdırılmayıb. Tələbələr dərs zamanı öz şəxsi kompüterlərindən istifadə edirlər.

**5.6.** İkili diplom proqramı üzrə tədris prosesi ümumi sahəsi 321 kv.m olan 3 auditoriyada həyata keçirilir. 2023/24-cü tədris ili üzrə təhsil alan tələbələrin ümumi sayı 81 nəfərdir. Hər tələbəyə düşən sahə 3.96 kv.m. təşkil edir.

**5.7.** Proqram üzrə 2 əməkdaşdan (proqram direktoru və assistenti) ibarət inzibati heyətin fəaliyyətini təmin edən 20 kv m. olan bir otaq mövcuddur, akademik heyət, əsasən saat hesabı fəaliyyət göstərən professor-müəllim heyətindən ibarət olduğu üçün onlar ayrı otaqla təmin olunmur. İkili diplom proqramının icrası zamanı inzibati heyətin sayı sabit qaldığından otaq fondunun inkişaf dinamikası nəzərdə tutulmur.

**5.8.** Tələbələr və professor-müəllim heyəti ikili diplom proqramı üzrə kitabxananın bilavasitə xidmət imkanlarından faydalana bilmirlər. İkili diplom proqramı üzrə kitabxananın fəaliyyət göstərməsi və kitabxana fondunun dərslik və dərs vəsaiti ilə komplektləşdirilməsi üçün müvafiq maliyyə vəsaiti ayrılmadığı qeyd edildi.

**5.9.** İkili diplom proqramı üzrə kitabxana fondunun nəşr olunmuş dərslik və dərs vəsaitinin (çap şəklində) komplektləşdirilməsində artım dinamikası nəzərdə tutulmur. ÖH-də də qeyd olunduğu kimi ilk tədris ilində xaricdən ingilis dilində dərs vəsaitlərinin alınıb Azərbaycana göndərilməsi ilə bağlı müəyyən problem yaşandığına görə sonrakı illərdə çap şəklində zəruri ədəbiyyatın alınması həyata keçirilməyib. Tədris prosesində, əsasən, elektron resurslardan istifadə olunsa da, tammətnli elektron kitabxana yaradılmayıb. Tələbələr CVU-nun elektron kitabxanasına çıxışla təmin olunsalar da, APDU-nun professor-müəllim heyətinə bu xidmət şamil olunmur. APDU-nun müəllimləri özləri tələbələri tədris prosesində istifadə olunan dərslik, dərs vəsaiti və elmi məqalələrin elektron versiyası ilə təmin edirlər. Fənn sillabuslarında qeyd olunan dərslik və/və ya dərs vəsaitlərinin sonuncu nəşrləri mövcud olsa da, tədris prosesində əvvəlki nəşrlərdən istifadə olunur.

**5.10.** Sahə səfəri zamanı Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin binasında SABAH qrupları üçün fəaliyyət göstərən bir otaqlı kitabxanada ikili diplom proqramına aid məhdud sayda materialların olduğu müşahidə edilmiş, həmçinin, tələbələrin CVU-nun elektron resurslarından istifadə imkanına malik olduqları izlənilmişdir.

**5.11.** İkili diplom proqramının büdcəsinə dair təqdim olunan müqavilədə elmi ədəbiyyatların təmin edilməsi üçün büdcənin ayrıldığı qeyd olunub. ÖH-də də qeyd olunduğu kimi, bu mövzuda gömrük problemlərinin yaşanması səbəbindən növbəti dövrlərdə ədəbiyyatların xaricdən gətirilməsi mümkün olmayıb.

**5.12.** İkili diplom proqramı üzrə özünütəhlil hesabatında hər semestrin sonunda təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi dərs deyən müəllimlərlə müzakirələrin keçirilməsi və təhlil aparılması şifahi formada həyata keçirilir.

**5.13.** İkili diplom proqramı üzrə təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlıq vəziyyətini qənaətbəxş hesab etmək olar. Tədris olunan bütün fənlər üzrə fənnin məqsədi, gözlənilən təlim nəticələri, əsas və əlavə ədəbiyyatlar, istifadə olunacaq tədris metodları, qiymətləndirmə meyarları haqqında ətraflı məlumatı özündə ehtiva edən fənn sillabusları mövcuddur. Professor-müəllim heyəti və tələbələrlə müsahibə zamanı xarici müəllimlər tərəfindən tədris materiallarının Blackboard, bəzi yerli müəllimlər tərəfindən isə TEAMS platformalarına yerləşdirilməsi, bəzi halda tələbələrin elektron məktub ünvanlarına göndərilməsi müəyyən edildi. İkili diplom proqramında elektron tədris resurlarından istifadənin tətbiq olunması ilə kəmiyyət ehtiyacları, ingilis dilində olan müasir təlim materiallarının istifadəsi ilə isə keyfiyyət tələbatının ödənilməsi təmin olunur.

**5.14.** İkili diplom proqramının icrası müddətində sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının tətbiqinə ehtiyac yaranmadığı səbəbdən belə bir yanaşma nəzərdə tutulmayıb.

**5.15.** İkili diplom proqramı üzrə özünütəhlil hesabatında təlim və tədris resurslarının mümkün imkanlar çərçivəsində təkmilləşdirilməsinin aparılması qeyd olunsa da, bununla bağlı yalnız fənn sillabuslarında yenilənmə aparıldığı müşahidə olunur. Tələbələrlə görüş zamanı qeyd olunan fikirlərə əsasən qrup işləri üçün daha əlverişli şəraitin yaradılması, vahid elektron öyrənmə platformasından istifadə, iaşə infrastrukturunun fəaliyyət göstərməsi və istirahət otağının təşkil edilməsi tövsiyə olunur.

## 6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza

**6.1.** Proqram çərçivəsində tədris prosesinin təşkil olunduğu ARTİ-nin Tədris Texnologiyaları Mərkəzinin binasına keçirilən sahə baxışı zamanı proqramın icrası üçün nəzərdə tutulan tədris otaqlarının dövlət standartlarına uyğunluq vəziyyəti təhlil edilib. Bəzi tədris otaqlarının dizaynının və işqlandırma sisteminin tədris üçün əlverişli olmadığı müşahidə edildi. Belə ki, dərsdinləmələr zamanı CVU-nun proqramına uyğun olaraq tədris olunan bir fənnin akt zalında tədris edildiyi müşahidə edildi. Tədris prosesinin akt zalında həyata keçirilməsi tələbələr arasında müzakirələr, qrup işlərinin təşkili kimi interaktiv öyrənmə fəaliyyətlərin təşkilinə, həmçinin kompüterdən istifadəyə mane ola biləcəyi nəzərə alındıqda bu durum bir çatışmazlıq olaraq qiymətləndirilə bilər. Akt zalının strukturu tədrisi həyata keçirən müəllim(lər)in səhnədə oturmasını, tələbələrin isə dinləyici qismində zaldakı oturacaqlarda oturmasını məcbur edir. Bu isə tələbələrin interaktiv öyrənmə təcrübəsini əldə etmək imkanlarını məhdudlaşdıra bilir. Akt zalında həyata keçirilən tədris prosesini müşahidə edərkən tələbələrin qrup işi və digər tapşırıqları yerinə yetirdikləri zaman masanın olmaması səbəbindən şəxsi kompüterlərinin dizlərinin üzərində istifadə etdiyi müşahidə edildi. Bundan əlavə tədrisin təşkili üçün ayrılan bəzi otaqlarda həm də işıqlandırma probleminin olduğu qeyd edilməlidir. Dərsdinləmələr zamanı qənəatbəxş səviyyədə olmayan işıqlandırmanın yazı lövhəsində qeyd olunan və ya ekranda təqdim olunan məlumatların aydın görünməsinə mane olduğu müşahidə edildi. Həmçinin, bu, tələbələrin dərs materiallarını izləmə və eyni zamanda dərsə fokuslanmalarına əngəl törədir və səmərli tədris mühitinə təsir göstərir.

**6.2.** Təlim resurslarının mövcudluğu ilə bağlı qeyd oluna bilər ki, sahə baxışı zamanı proqram üçün nəzərdə tutulmuş və kitabxana funksiyasını icra edən sinif otağına baxış keçirildi. Baxış zamanı müvafiq sinifin sadəcə proqram tələbələri üçün nəzərdə tutulmadığı, SABAH magistratura ixtisaslaşmasında təhsil alan tələbələrin istifadəsi üçün zəruri olan tədris materiallarının da burada toplandığı bildirildi. Sinifdə məhdud sayda materialların olduğu müşahidə edildi. Bundan əlavə tələbələrlə və məzunlarla keçirilən müsahibələrdə bəzi dərslər üçün təlim materiallarına əlçatanlıqda bəzən məhdudiyyətlərin yarandığı qeyd olundu. Xüsusən də materialların xaricdən gətirilməsinin uzun vaxt aldığı, həmçinin gömrük problemlərinin yaşandığı bildirildi.

**6.3.** İstər ÖH-də, istərsə də proqram rəhbəri, müəllim və tələbələr ilə keçirilən müsahibələrdə qeyd olundu ki, CVU tərəfindən BlackBoard LMS platformasından istifadə olunur. ÖH-də ADPU tərəfindən tədris olunan dərslərə dair materialların isə MS Teams platformasına yükləndiyi qeyd edilib. Lakin həm proqramda tədris aparan müəllimlərlə, həm də tələbələrlə müsahibə zamanı bütün dərslər üçün MS Teams-dən istifadə olunmadığı vurğulandı. Belə ki, bəzi müəllimlər və tələbələr istər tapşırıqların təqdim olunması üçün, istərsə də digər məsələlərdə ünsiyyət vasitəsi kimi elektron məktubdan istifadə etdikləri bildirildi.

**6.4.** Təhsil proqramı üzrə tədris laboratoriyalarının mövcudluğu vəziyyəti ilə bağlı qeyd oluna bilər ki, Statistika dərslərinin təşkili üçün kompüter laboratoriyası mövcud deyil. Dərslərin təşkili zamanı tələbələrə öz kompüterləri (ən az 2 nəfərə 1 kompüter) ilə dərsə gəlmək barədə fənn müəllimi tərəfindən məlumat verilir. Yəni, kompüter ehtiyacı tələbələrin şəxsi kompüterləri hesabına ödənir. Proqram təminatı və s. kimi digər resursların isə müəllim tərəfindən təmin edildiyi qeyd olundu.

**6.5.** Təhsil proqramı üzrə istehsalat tərcrübəsi ilə bağlı müsahibələr zamanı müxtəlif, bəzən isə bir-biri ilə əlaqəli olmayan ziddiyyətli fikirlər səsləndirildi. Proqramda təhsil alan tələbələrin istehsalat təcrübəsində iştirakı zəruri və icbaridir. Bu proses daha çox tələbələrin öz maraq və istəklərinə uyğun təşkil olunur. Müsahibələr zamanı bəzi tələbələr öz istəklərinə uyğun müəssisə tapdıqları zaman bunu proqram rəhbərliyinə bildirməklə istehsalat təcrübəsindən keçdiklərini qeyd etdilər. Bəzi tələbələr isə uyğun müəssisə tapmaqda bəzən çətinlik yaşadıqlarını, hər hansı bir təhsil müəssisəsi ilə əlaqələrinin olmaması səbəbindən digər tələbə yoldaşlarından və proqram rəhbərliyindən dəstək istədiklərini qeyd etdilər. Müəssisələrə əlçatanlıqla bağlı məhdud imkanları olan tələbələr müəssisə tapmaq və razılaşdırmaq ilə bağlı proseslərdə bu nöqteyi-nəzərdən çətinlik yaşadıqlarını vurğuladılar.

**6.6.** Hər iki ölkənin proqram rəhbərliyi ilə keçirilən görüşlərdə proqramın icrasının ilk illərində həm pandemiyanın, həm də 44 günlük Vətən Müharibəsi dövründə ABŞ-dən olan professorların Azərbaycana səfər etməsi mümkün olmadığı üçün tədris prosesinin fasiləsizliyini təmin etmək məqsədilə dərslərin onlayn formatda təşkil edildiyi bildirildi. Bu barədə ÖH-də də müvafiq məlumatlar qeyd olunub. Tədris prosesinin zaman-zaman onlayn formatda təşkil olunması həm təhsilalanların, həm də təhsilverənlərin distant təhsil təcrübəsinin olduğunu göstərir. Distant təhsil üçün infrastruktur ilə bağlı qeyd oluna bilər ki, tədrisin təşkil edildiyi Tədris Texnologiyaları Mərkəzində proqram üçün ayrılan otaqlar sadəcə bir ədəd kompüterlə təchiz olunub, yəni distant təhsilin təşkili üçün xüsusi infrastruktur mövcud deyil.

**6.7.** Təhsil proqramı üzrə tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti ilə bağlı qeyd oluna bilər ki, tədrisin həyata keçirildiyi bina ADPU-nun balansında olmadığı üçün istifadədə çətinliklər var. Nümunə üçün, yeməkxana günün sonunda bağlandığı üçün proqramda təhsil alan tələbələrə əlçatan deyil. Tədris axşam saatlarında təşkil edildiyi üçün tələbələr yeməkxanadan istifadə edə bilmirlər. Bundan əlavə auditoriyalarda proyektor və internetə qoşulmuş məhdud

sayda (adətən 1) kompüter var. Dərs dinləmələr zamanı tələbələrin şəxsi kompüterlərdən istifadə etdiyi müşahidə edildi.

**6.8.** Sağlamlıq imkanları məhdud şəxslərin istifadəsi üçün binada liftlər var. Sahə baxışı zamanı proqram rəhbərliyi bildirdi ki, Corc Vaşinqton Universitetindən tədris prosesinə cəlb olunan bir professor iki il boyunca əlil arabasından istifadə etməklə tədris binasından və auditoriyadan sərbəst şəkildə istifadə edib. Bu məsələ ÖH-də də öz əksini tapıb.

**6.9.** Təhsil proqramı üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyətinə dair ÖH-də qeyd olunub ki, istər Təhsil Texnilogiyaları Mərkəzi, istərsə də ADPU tərəfindən hər il tədris binasının monitorinqi aparılır. Lakin təhsil infrastrukturunun istifadəsi ilə bağlı monitorinqlərin aparılması vəziyyəti ilə bağlı proqram rəhbərliyi ilə keçirilən görüşlərdə qeyd olundu ki, tədris prosesinin həyata keçirildiyi binanın ADPU-ya məxsus olmaması səbəbindən monitorinqin təşkili və həmçinin maliyyə vəsaitinin ayrılması mümkün deyil.

## 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

**7.1.** Proqramda həyata keçirilən fənlər üzrə qiymətləndirmə ilə bağlı vahid yanaşmanın olmadığı, yəni, müəllimlərin özlərinin fərqli yanaşmaları olduğu qeyd oluna bilər. Müəllimlərin hansı qiymətləndirmə formasından istifadə etməsinə qərar verməsi tamamilə sərbəstdir və bu tədris prosesindəki ehtiyaca uyğun olaraq müəyyənləşdirilir.

**7.2.** Tədrisi həyata keçirən müəllimlərlə müsahibələr zamanı qeyd edildi ki, bəzi dərslərdə fərdi tapşırıqların verilməsi üstünlük təşkil etsə də, bəzi dərslərdə qrup tapşırıqlarından daha çox istifadə olunur. Yəni, qiymətləndirmə ilə bağlı ortaq bir yanaşma yoxdur, fərdi yanaşma tətbiq olunur. Həmçinin, qiymətləndirmə ilə bağlı dərs prosesinin əvvəlində tələbələr ilə müzakirələr həyata keçirilir və tələbələrin təklifləri nəzərə alınır. Qiymətləndirmə məqsədilə müxtəlif növ tapşırıqlardan istifadə olunur. Müsahibələr zamanı müəllimlər daha çox layihə əsaslı qiymətləndirmədən, siyasət sənədinin hazırlanması kimi tapşırıqları özündə ehtiva edən fərqli tapşırıqlardan istifadə olunduğunu bildirdilər. Qiymətləndirmə zamanı istifadə olunan tapşırıq növlərinin müxtəlifliyi ÖH-də də təfsilatlı şəkildə qeyd edilib.

**7.3.** Qiymətləndirmə meyarları ilə əlaqəli hamı tərəfindən qəbul edilən vahid bir yanaşmanın olmadığı müsahibələr zamanı qeyd edildi. Müəllimlərin bəziləri qiymətləndirmə üçün ADPU-nun yanaşmasından istifadə etdiyini, bəziləri CVU-nun qiymətləndirmə qaydalarından istifadə etdiyini bildirildi. Tədris aparan bəzi müəllimlər isə qiymətləndirmə üçün ADPU və CVU-nun yanaşmalarından heç birini istifadə etmədiyini qeyd etdilər. Yekun olaraq qeyd oluna bilər ki, akademik sərbəstlik əsas gətirilərək ADPU tərəfindən müəllimlərə hər hansı bir qiymətləndirmə qaydaları təqdim olunmur.

**7.4.** Təhsil proqramı üzrə qiymətləndirmədə vahid yanaşmanın təmin olunmadığı Komissiya tərəfindən müşahidə olundu. Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin və şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti ilə bağlı istər ÖH-də, istərsə də sahə səfəri zamanı tədris prosesinə cəlb olunan müəllimlərlə keçirilən müsahibələrdə qeyd olundu ki, professor-müəllim heyətinin hazırladıqları sillabuslarda qiymətləndirmə meyarları aydın şəkildə təqdim edilir. ÖH-də həm də indiyə qədər tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi ilə bağlı ciddi bir narazılıq hallarının yaşanmadığı bildirildi. Sahə səfəri zamanı təşkil olunan müsahibələrdə qiymətləndirmənin obyektiv olmaması və qiymətləndirmə ilə bağlı məlumatları əhatə edən sillabusun tələbələrə zamanında təqdim olunmaması kimi hallar barədə fikirlər səsləndirildi. Müvafiq məsələ ilə bağlı tələbələrin narazılıqlarının ortadan qaldırılması üçün proqram rəhbərliyinin prosesə müdaxilə etdiyi bildirildi. Təhsilalanların məsələlərə münasibətində aydın oldu ki, bəzi dərslərdə qiymətləndirmələr tam obyektiv aparılmır. Belə ki, tələbələrin yüksək qiymət aldığı qeyd olundu. Bu fikir ÖH-də də vurğulanıb. Tələbələrin tərəfdaş universitetdə tədris olunan fənlərdən yüksək qiymətlər aldığı bildirilib. Müsahibələrdə həmçinin tədris prosesində tapşırıqların yoxlanılması və qiymətləndirilməsində əks-əlaqənin bəzən gec, bəzən isə tam və ya heç vaxt təmin olunmaması kimi halların baş verdiyi qeyd edildi.

**7.5.** Təhsilverənlərlə müsahibələr zamanı qeyd edildi ki, tədris etdikləri fənn çərçivəsində dərslərdə tələbələrdən refleksiya tapşırıqlarının yazılması tələb olunur. Bu üsuldan tələbələrin özünüqiymətləndirmə bacarığının formalaşması və inkişafına nail olmaq üçün istifadə edilir. Müvafiq məsələ ÖH-də də öz əksini tapıb.

**7.6.** Təhsil proqramı üzrə qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti ilə bağlı qeyd oluna bilər ki, həm ÖH-də, həm də təhsilalanlar və təhsilverənlərin iştirakı ilə həyata keçirilən müsahibələrdə bilidirildi ki, əsasən TEAMS platformasından istifadə olunur. Təhsilalanlar hazırladığı tapşırıqları TEAMS-ə yükləyir və qiymətləndirmə müvafiq qaydada həyata keçirilir. Lakin bəzi müəllimlər tədris etdiyi fənnin spesifikliyini nəzərə alaraq fərqli LMS-dən istifadə edirlər. Nümunə üçün, bir fənn çərçivəsində "Neo LMS" onlayn platformasından istifadə etməyə üstünlük verilir. Tələbələr tapşırıqlarını platforma vasitəsilə müəllimə təqdim edirlər və qiymətləndirmə də orada aparılır. Bəzi müəllimlər isə MS TEAMS-dən heç vaxt istifadə etmədiyini, qiymətləndirmə üçün təqdim olunan tapşırıqların sadəcə elektron poçt vasitəsilə göndərilməsini və cavabların da eyni üsullarla tələbələr ilə paylaşıldığını bildirdi. Bu mənada tələbə tapşırıqlarının vahid bir sistem vasitəsilə təqdim olunması ilə bağlı təzadlı fikirlər mövcuddur. Sahə səfəri zamanı vurğulandı ki, hər bir müəllim proqram katibinə yekunda hazır qiymətləri rəqəm olaraq göndərir.

**7.7.** Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti ilə bağlı qeyd oluna bilər ki, istər ÖH-də, istərsə də müsahibələr zamanı proqramın icrası müddətində bu istiqamətdə belə bir ehtiyac yaranmadığı və gələcəkdə yarandığı təqdirdə xüsusi diqqətdə saxlanılacağı və alternativ qiymətləndirmə üsullarından istifadə oluna biləcəyi bildirildi.

**7.8.** Təhsil proqramı üzrə cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti ilə bağlı qeyd oluna bilər ki, istər ÖTH-də, istərsə də proqramda tədris aparan müəllimlər ilə görüş zamanı vurğulandı ki, qiymətləndirmə aralıq və yekun imtahan formasında deyil, semestr ərzində fərdi və qrup tapşırıqları formasında həyata keçirilir. Qiymətləndirmə meyarları barədə vahid yanaşma olmadığı üçün istifadə olunan üsullar müəllimlərə görə fərqlənə bilir.

**7.9.** Təhsil proqramı üzrə Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili) ilə bağlı qeyd edilə bilər ki, proqram spesifik olduğu və tərəfdaş universitetlər arasında bağlanan müqavilə ilə tənzimləndiyi üçün Yekun Dövlət Qiymətləndirilməsi tətbiq edilmir. Bu həm ÖH-də, həm də sahə səfəri zamanı müsahibələrdə öz təsdiqini tapdı.

**7.10.** ADPU tərəfdən həyata keçirilən dərslərdə tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi tələbələrin fərdi və qrup halında akademik tədqiqatları əsasında təşkil edilir. Bu barədə məlumatlar həm ÖH-də, həm də sahə baxışı zamanı həyata keçirilən müsahibələrdə təhsilalanlar və təhsilverənlər tərəfindən təsdiq edildi.

**7.11.** Tələbələr təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi qaydaları ilə bağlı tədris prosesinə başlamazdan əvvəl proqram rəhbərliyi tərəfindən məlumatlandırılırlar.

**7.12.** Proqramın sonunda məzunlara tərəfdaş CVU tərəfindən Təhsil siyasəti və insan inkişafı, ADPU tərəfindən isə Menecment (Təhsilin təşkili və idarə olunması) ixtisaslaşmaları üzrə magistr diplomları verilir. Təhsilalanlar CVU tərəfindən məzun olmaq üçün 10 kursu müvəffəqiyyətlə tamamlamalı, eləcə də "Capstone" layihəsi təqdim etməlidirlər. Bu şərtlər tamamlandıqda müvafiq universitetin diplomunu əldə etmək haqqına sahib olurlar. ADPU diplomunu almaq üçün isə təhsilalanlar ADPU tərəfindən tədris olunan 10 fənni müvəffəqiyyətlə bitirməli, istehsalat təcrübəsində iştirak etməlidirlər. Bunlar tamamlandıqdan sonra CVU tərəfindən tədris olunan dərslərdən qazanılan 60 kredit ADPU tərəfindən toplanılan kreditlə cəmlənir. Yekun olaraq, təhsilalanlar 120 krediti topladıqdan sonra ADPU-nun diplomunu almaq haqqına sahib olurlar. Rəsmi prosedurlar barədə daha dəqiq məlumatı əldə etmək üçün ADPU-nun Magistratura və doktorantura şöbəsinin rəhbərliyi ilə dəqiqləşdirmək imkanı olmadı. Sahə səfəri zamanı ilkin müsahibə cədvəlində müvafiq şöbənin rəhbərliyi ilə görüş nəzərdə tutulsa da, daha sonra aidiyyəti məsul şəxsin adı hər hansı bir izah verilmədən müsahibə cədvəlindən çıxarıldı. Bu səbəbdən müsahibə prosesini həyata keçirmək mümkün olmadı.

## 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti

İkili diplom proqramı üzrə ümumi olaraq 16 müəllim tədrisin təşkilində iştirak edir. Bunlardan 8-si CVU tərəfidən təyin olunmuş 10 fənni tədris edir. Onların 7-si CVU-nin tam ştatlı

müəllimləri və 1-i isə doktorluq dərəcəsinə namizəddir. Tam ştat üzrə çalışan professor-müəllim heyəti arasından 7 müəllimin doktoroluq dərəcəsi var və onlardan biri elmi işlər üzrə dekandır. ADPU tərəfindən təmin olunan dərsləri isə digər 8 yerli müəllim tədris edir. Onlardan 4-nün doktorluq dərəcəsi var. 4-ü isə ABŞ-nin müxtəlif universitetlərindən magistr dərəcələri ilə məzun olmuş təhsil üzrə mütəxəsislərdir. Onlardan bir müəllim ali təhsil müəssisəsində çalışır. Bir müəllim isə ali təhsil müəssisənin rektorudur. 4 müəllim isə dövlət qurumlarında yüksək səviyyəli dövlət məmurlarıdır. Bir müəllim akkreditasiya olunan ikili diplom proqramının direktorudur. Digər iki müəllimdən biri yerli QHT-nin rəhbəri, digəri isə BMT qurumunda tam ştatlı işçidir. ADPU tərəfinin müəllimlərinin hamısı saat hesabı şərtlərlə dərs deyən müəllimlərdir. CVU tərəfindən cəlb olunan müəllimlər isə universitetin tam ştatlı müəllimləridir. Proqram qiymətləndirilməsi çərçivəsində komissiyaya, əsasən ADPU tərəfindən dərs deyən müəllimlər ilə müsahibə etmək imkanı yaradılıb. CVU tərəfindən isə komissiyanın yalnız 2 müəllimi ilə görüşmək mümkün olub. Bunun nəticəsində aşağıda təqdim edilən qiymətləndirmə nəticələri əsasən ADPU-nun cəlb etdiyi müəllimlərə aiddir.

**8.1.** Müsahibələr zamanı verilən şifahi məlumatlara və təqdim olunan sənədlərə əsasən ADPU tərəfindən müəllimlər dəvət əsasında dərs deyirlər. Verilən məlumata əsasən yerli müəllimlərin seçilməsi üçün elan verilib, amma buna baxmayaraq tələblərə cavab verən kadrlar tapılmayıb. Buna görə 8 azərbaycanlı müəllim proqramda dərs demək üçün kənardan dəvət olunub. Komisiyaya şifahi verilən məlumata görə ADPU-nun müəllimləri aşağıda qeyd edilən bu tələblərə cavab verməlidirlər:

1) ingilis dilini bilmək;

2) müasir tədris metodlarıyla dərs demək üçün bilik və bacarıqlarının olması;

3) proqramın icrasında müəllim qismində iştiraka etmək üçün niyyətin bildirilməsi.

**8.2.** Akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarların tərtib edilməsi üzrə sənədin təkminləşdirici işə ehtiyac var. ÖH-dəki məlumatlar və müsahibələr özündə bu meyarları ehtiva edən belə bir sənədin mövcudluğunu təsdiq etmədi.

**8.3.** Qiymətləndirmə zamanı əldə olunan məlumatlara əsasən professor-müəllim heyətinə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər nəzərdə tutulmayıb. Müşahidələrə və məlumatlara əsasən kənardan dəvət olunan professor-müəllim heyətinin kifayət qədər səriştəli olduğundan sistemli təlimlərin verilməsinə ehtiyac olmayıb. Verilən məlumata əsasən CVU tərəfindən yalnız 1 (bir) dəfə təlim keçirilib.

**8.4.** Professor-müəllim heyətinə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirak edib. Təhsil proqramı bu sahədə ADPU-nun tam ştatlı akademik heyətinin bir qurup üzvünə CVU 1 (bir) dəfə təlim təşkil edib.

**8.5.** Təhsil proqramında CVU-nun tam ştatlı müəllimləri beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etməsi müşahidə olunur. Bunu onların komissiyaya təqdim etikləri CV-lərdən görmək olar.

ADPU tərəfindən cəlb olunan 8 müəllimin 7-si saathesabı qaydada çalışır. Onlardan iki müəllim dövlət qulluqçusudur, bəziləri isə Azərbaycanın ali təhsil müəssisələrində yüksək vəzifə tutur. Bu səbəbdən onların peşkar inkişaf proqramlarında iştirakının vəziyyəti barədə rəy bildirmək qeyri-mümkündür.

**8.6.** CVU-nun karyera inkişafı mərkəzi və buna bənzər mərkəzlərinin olması, CVU akademik heyətinin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi universitetləri tərəfindən təmin olunur. Lakin ADPU sistemində belə bir işin icra olunması müşahidə olunmur. Təhsil proqramı çərçivəsində də CVU tərəfindən bu təcrübənin ADPU-ya ötürülməsi haqqında da məlumat komissiyaya təqdim olunmayıb.

**8.7.** Hər iki universitet tərəfindən müəllimlər dəvət əsasında proqramın tədrisinə cəlb olunduğu üçün, dərslər müəllim sayına və təcrübələrinə əsasən bölünüb.

**8.8.** Həm CVU həm də ADPU tərəfindən 20 dərsi demək üçün say etibarı ilə kifayət sayda müəllimlərin cəlb olunması müşahidə olunur. Hətta proqram direktorlarının da dərs deməsi müşahidə olunur.

**8.9.** CVU müəllimlərin 90%-nin iş yeri müvafiq ali təhsil müəssisəsidir. Lakin ADPU tərəfindən cəlb olunan məüllimlərin hamısı saathesabı qaydada tədris prosesinə cəlb oldunuqları üçün onların əsas iş yerləri başqa ali təhsil müəssisələrdir.

**8.10.** Təhsil proqramı, proqramda dərs demək üçün ingilis dili və müasir tədris metodları ilə dərs demək tələb qoyduğu üçün, ikili proqram tədris üçün kənardan professor-müəllim heyətinin cəlb olunması zəruriliyi yaranmışdır.

**8.11.** CVU tərəfindən cəlb olunan müəllimlərin əməkhaqqısı haqqında komissiyaya təqdim edilən şifahi məlumata əsasən onlar ikili proqramda dərs dedikləri üçün CVU-dakı 1 dərs yükündən azad olunurlar. Lakin ADPU tərəfindən cəlb olunan müəllimlərin hamısına standard əməkhaqqı ödənilir.

**8.12.** Təhsil proqramında ADPU tərəfindən cəlb olunan saathesabı 8 müəllimdən 3-ü Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzundur.

## 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris

Təhsil proqramında mövcud imkanlar daxilində tələbəyönümlü tədrisin təşkilinə cəhd edilir. Bu baxımdan mütəmadi olaraq tələbələrin təhsil proqramı haqqında rəyləri öyrənilir, onların təklif və şikayətlərini dinləmək üçün fərdi və qrup şəkilində görüşlər keçirilir. Bu prosesə proqram direktorları, professor-müəllim heyəti ilə yanaşı, ADPU-nun rektor və prorektorları da cəlb olunur.

**9.1.** Təhsil proqramında təhsil alan tələbələr və ya proqramın məzunları fərdi tədris planının tərtib edilməsində təkminləşməyə ehtiyac var. Bu sahədə CVU təcrübəsindən öyrənilə bilər.

**9.2.** Qiymətləndirmə nəticəsində müəyyən olundu ki, təhsil proqramının tərtibatına görə tədris olunan 20 fənnin hamısı fundamental və tələb olunan dərslər kimi təyin olunub. Bu səbəbdən proqramda seçmə fənlər yoxdur. Tələbələr diplom almaq üçün müəyyənləşdirilən bütün fənlərdən müvəffəqiyyətli olmalıdırlar.

**9.3.** Təhsil proqramında təhsilverənlərin və akademik məsləhətçilərin tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin təmin olunmasında təkminləşməyə ehtiyac var.

**9.4.** Komisiyaya verilən şifahi məlumata əsasən təhsil proqramında tələbələr arasında mütamadi olaraq rəy sorğusu keçrilir. Rəy sorğusu proqramın ümumi qiymətləndirilməsi, müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi və dərslərin dəyərləndirilməsi istiqamətlərində aparılır.

**9.5.** Komissiyaya verilən şifahi məlumatlara görə rəy sorğularının nəticələrində, habelə tələbələrin fərdi və ya qrup şəkilində təklifləri əsasında dərslərin aparılmasına dəyişikliklər edilir.

**9.6.** Komisiyaya verilən şifahi məlumata əsasən proqram rəhbərliyi mütəmadi olaraq tələbələr arasında rəy soruğusu keçirərək, onların təklif və şikayətlərini toplayırlar.

**9.7.** Komisiyaya verilən şifahi məlumata əsasən təhsil proqramı üzrə təhsilalanların şikayət və/ və ya təklifləri rəy sorğusu ilə yanaşı proqram direktorları, ADPU-nun administrasiyası ilə fərdi və qrup görüşləri vasitəsilə qeydə alınır. Bununla yanaşı, təhsilalanlara, yazılı şəkildə də öz təklif və şikayətlərini bildirmək imkanı yaradılır. Bu prosesin sistemli şəkildə təşkil olunması və formal bir mexanizimin təkminləşməsinə ehtiyac var.

**9.8.** Təhsil proqramında təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər (tyutor) funksiyasını proqram direktorları həyata keçirir.

**9.9.** Həm proqram direktoru, həm tələbələr ilə aparılan müsahibələr nəticəsində məlum oldu ki, proqram direktorları təhsilalanlarla həm onlayn, həm də üzbəüz görüşlər keçirirlər.

**9.10.** Təhsil proqramında sağlamlıq imkanları məhdud tələbələr olmadığı üçün bu meyar üzrə qiymətləndirmə zaman hər hansı bir fəaliyyətin həyata keçirilməsi müəyyən olunmadı.

**9.11.** Təhsilalanların təhsil proqramına sosial həssas qrupa aid edilən vətəndaşların proqrama müraciət edib təhsil almaq imkanı təmin olunub. Proqram haqqında elanlar KİV və sosial mediada hamıya əlçatan olaraq yayılır. Proqrama qəbul olduqdan sonra sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığının təmin olunması 3 məcburi köçkün statusuna malik tələbənin təhsil haqqından azad olması ilə müşahidə olunur.

## 10. Təhsil proqramının monitorinqi

**10.1.** Müsahibələr nəticəsində təhsil proqramlarının monitorinqi strategiyası və mövcud fəaliyyət planının olmaması qənaətinə gəlinib. Monitorinqlərin təhsilalanların sayının az olması ilə əlaqədar qeyri-formal təşkil edildiyi bildirilir. Müsahiblərdən biri onlarda monitorinq nəticələrinə dair data olmadığını bildirdi. Digər bir müsahib isə təhsil proqramlarının monitorinqi strategiyasına dair fəaliyyət planına müəllim və tələbələrlə sorğuların daxil olduğunu və sorğularla əlaqəli məlumatların rüblük və illik hesabatlara daxil edildiyini bildirdi. Müsahibələrdən məlum olur ki, tələbə məmnuniyyəti ilə bağlı ADPU tərəfindən ümumi sorğu ildə iki dəfə keçirilir. Sorğuların linki göstərir ki, sorğu proqramda tədris edən əcnəbi və yerli müəllimlərin tədrisi, yanaşması, fənnin nə dərəcədə faydalı olması və s. ilə bağlı sualları əhatə edir. Müəllim-professor heyəti və tələbələrlə mövcud məsələlərin müzakirəsi üzrə ünsiyyət və problemlərin həlli əsasən şifahi və qeyri-formal əsasda qurulub. Aparılan işlərlə bağlı yazılı qeydlər, protokollar qeydə alınmadı.

**10.2.** Müsahiblər bildirir ki, hər modulun başlanğıcında proqramda tədris edən professor-müəllim heyətinə məzun profili göndərilir və təlim nəticələri müəllimlərlə müzakirə edilir və müəllimlər sillabuslarını hazırlayarkən məzun profili və təlim nəticələrini əsas götürürlər. Faktiki olaraq isə təlim nəticələrinin əldə edilməsinə nəzarətə gündəlik əsasda müşahidə və görüşlər, tələbələrin və professor-müəlllim heyətinin performansının şifahi və qeyri-formal dəyərləndirilməsi və bununla bağlı şifahi, qeyri-formal müzakirələr daxildir. Təlim nəticələrinin əldə edilməsinə sistemləşdirilmiş nəzarət yoxdur.

**10.3.** Müəllim heyəti tərəfindən hər modulun sonunda müəllimlərin və ümumilikdə proqramın tələbə sorğuları vasitəsilə qiymətləndirilməsi mexanizmi olduğu bildirilir. Müəllimlərin bu sorğuların məzmunu ilə bağlı məlumatı olmur, onlara nəticələr göstərilmir və ya yazılı şəkildə paylaşılmır. Məlumatlar və tələbə rəyləri müəllimlərlə şifahi şəkildə paylaşılır. Tələbələr də öz növbələrində hər modulun sonunda onlarla yazılı sorğuların keçirildiyini bildirmişdir. ADPU tərəfi üçün ayrı və Corc Vaşinqton Universiteti üçün ayrı sorğular keçirilir və tərəflər bu sorğuları və ya onların nəticələrini bir-birilə paylaşmırlar. Komissiyaya təqdim edilən sorğu nəticələrində sorğuların nəticəsinin təhlili zamanı aşkarlanmış çatışmazlıqlar sırasında tələbələrin əsas və yeganə şikayətinin dərs yükünün ağır olması ilə əlaqədar olduğu qeyd edilir. Müsahiblərimiz tələbə şikayətlərinin yalnız dərs yükü ilə deyil, bir çox digər məsələlərlə əlaqəli olduğunu bildirsələr də, sorğu nəticələrində həmin problemlər qeyd olunmayıb. Sorğular nəticəsində tələbələr cavablandırdıqları məsələlərdə və təkliflərində nəticə olmadığını bildirirlər.

Təqdim edilən sənədlərdə sorğuların nəticələrinin Elmi Şurada müzakirə olunma vəziyyəti və sorğuların təhlili nəticəsində atılmış addımlar barədə heç bir məlumat qeyd edilməyib.

**10.4.** Proqramın icrası ilə bağlı, aylıq, rüblük və illik əsasda proqramın icrası ilə bağlı illik hesabatı və Proqramın maliyyələşdirilməsi və onun icrasına dair monitorinq hesabatlarının Dövlət Proqramlarının İdarəetmə Qrupuna təqdim edildiyi bildirilir. 2022-2023-cü ili əhatə edən illik hesabatlar ilə tanışlıqdan məlum olur ki, proqramla bağlı təhlil daha çox CVU tərəfi ilə bağlı yaradılmış çətinliklərin təsvirini əhatə edir, qarşıya çıxan maliyyə çətinlikləri və büdcə məhdudiyyətləri vurğulanır.

## 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi

**11.1.** Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi ilə bağlı qeyd edildi ki, proqramda təkmilləşdirmələri əsasən fənnlərə ayrılmış saatların dəyişdirilməsi, bir ildən digər ilə müəyyən fənnlər üzrə tapşırıqların yenilənməsi və ya kadr dəyişikliyi şəklində qəbul edilir.

**11.2.** CVU tərəfindən proqrama rəhbərlik edən şəxs isə proqrama qəbul prosesində, proqramın idarəedilməsində (yeni proqram müdirinin təyinatı), maliyyə hesabatlarının hazırlanmasında və bəzi administrativ proseslərdə təkmilləşdirmələr olduğunu bildirdi. ADPU tərəfinin məlumatlarına əsasən yerli müəllim-professor heyəti üçün CVU tərəfindən 1 dəfə təlim keçirilib, lakin CVU-dan bildirildi ki, belə təlimlər 3 dəfə təşkil edilib.

**11.3.** Müsahib qismində dinlənilən CVU tərəfindən Rəhbər Komitə (RK) üzvü bildirir ki, tərəflərin vaxtaşırı görüşləri olur, professor - administrativ heyət səviyyəsində proqramın idarəolunması, tələbələrin problemləri kimi məsələlər müzakirə olunur. Bu görüşlər nəticəsində bəzi məsələlərdə təkmilləşdirmə olub. Proqramın idarəedilməsi, maliyyə məsələlərinin həlli, tədris edilən fənlərlə bağlı təkmilləşmələr edilib, professorlarda dəyişiklik edilib. ADPU RK üzvü isə ildə 2 dəfə universitetləri təmsil edən tərəflər arasında görüşlər olduğunu və bu görüşlərin əsasən onlayn baş tutduğunu bildirir. Müsahib üz-üzə görüşlərə zərurət olmadığını bildirir. Eyni zamanda, müsahib təhsil proqramının təkmilləşdirilməsi və bəzi məsələlərin yenilənməsi və nəzərdən keçirilməsi ilə bağlı ADPU proqram təmsilçiləri tərəfindən təşəbbüslərin irəli sürüldüyünü bildirsə də, CVU tərəfindən bu təkliflərin nəzərə alınmadığını qeyd edir. ADPU tərəfindən bildirilir ki, iki universitetin professor-müəllim heyəti arasında görüşlər nadir hallarda keçirilir və bu çox zaman hər hansı formal tədbirlərdə baş tutur. Bildirilən fikirlərə əsasən hələ ki, məhz proqramın təkmilləşdirilməsi ilə bağlı ümumi görüş-müzakirə olmayıb.

## 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

**12.1.** Proqramın miqyasını nəzərə alaraq tələbə və məzunlar üçün karyera məsləhəti xidmətləri proqram rəhbərliyi tərəfindən təqdim olunur. Tələbələrin “WhatsApp” qruplarına mütəmadi olaraq yeni iş elanları ilə bağlı məlumatlar paylaşılır.

**12.2.** Hesabatlara əsasən proqramın ilk məzunları 2022-ci ildə olub. Həmin məzunlardan dörd nəfər ETN-nin müxtəlif struktur bölmələrində işə götürülüb. Məzunlardan biri ADPU-nun Strateji İnkişaf Mərkəzində əmək fəaliyyətinə başlayıb. Hal-hazırda proqram üzrə məzunlardan 10 nəfər ETN-də müxtəlif vəzifələrdə çalışır, lakin məzunlarla müsahibə zamanı müəyyən edilmişdir ki, həmin məzunlar əvvəldən də ETN-də çalışıblar. Sorğuda iştirak edən məzunların mütləq əksəriyyəti əvvəl çalışdıqları sahədə fəaliyyətlərini davam etdiklərini bildirdilər.

Təhsil proqramları üzrə tələbələrin kompetensiyalarına və ixtisaslarına uyğun əmək fəaliyyətinə başlama göstəricisi və dəyişmə dinamikasına dair statistika göstərir ki, 2022-ci ildə 2 (19 məzun arasından), 2023-cü ildə 4 məzun (23 məzun arasından) təhsil proqramı üzrə məzun olduqları ildə ixtisası üzrə əmək fəaliyyətinə başlayıb. Təhsil proqramları üzrə tələbələrin keçdikləri təcrübə nəticəsində əmək fəaliyyətinə dəvət olunma göstəricisinə dair sənədlərə rast gəlinmədi.

**12.3.** Məzunlar proqramda əhəmiyyətli bilik və bacarıqlar əldə etdiklərini qeyd etsələr də, bu bilik və bacarıqları tətbiq edəcək imkanların olmadığını bildirdilər. Bundan başqa təhsilalanlar və məzunlarla müsahibələrdən məlum oldu ki, onlarla sorğular keçirilib.

**12.4.** Məzunların əmək fəaliyyətinə başlamasının izlənməsi və onlarla əlaqələrin qurulması əsasən sosial şəbəkələr, WhatsApp və s. vasitəsilə həyata keçirilir. Müsahibələrdə də bildirildi ki, məzunların sayı az olduğu üçün onları davamlı izləmək xüsusi çətinlik yaratmır.

## 2. Komissiyanın meyarlar üzrə təhlili

| 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • ADPU-nun bir tərəfdaş kimi təhsil proqramı üzrə təhsilalanların qəbulunun son mərhələsində (CVU proqrama qəbul üçün müsahibələri aparır) iştirak etməməsi;<br>• Qəbul prosesi ilə bağlı sənədləşmənin bəzi hallarda mərkəzləşdirilmiş qaydada aparılmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | • ADPU-nun bir tərəfdaş kimi təhsil proqramı üzrə təhsilalanların qəbulunun son mərhələsində iştirak etməsi və bunun müqavilədə öz əksini tapması;<br>• Qəbul prosesi ilə bağlı sənədləşmənin sistemli və mərkəzləşdirilmiş qaydada aparılması; |

| 2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • Bu ixtisas üzrə təhsil alan tələbələrin əksəriyyəti humanitar və sosial elmlər sahəsi üzrə bakalavr təhsilinə malik olan şəxslər olmasının tədris prosesində yaratdığı maneələr; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | • Tədris prosesində yaranan maneələri aradan qaldırmaq üçün proqrama tələbə qəbulunda təhsil sahəsində minimum iş təcrübəsinin nəzərə alınması; |

| 3. Təhsil proqramı üzrə tədrisin təşkili | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • Təhsil alanların təcrübəkeçməsi (İnternship) ilə bağlı işin təşkilinın qənaətbəxş olmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | • Təhsil alanların təcrübəkeçməsi (İnternship) üçün ADPU-nun həm təhsillə bağlı beynəlxalq təşkilatlarla, həm də yerli təşkilatlarla əlaqələrinin yaranması və onlarla əməkdaşlıq imkanlarının artırılması; |

| 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | ● Təhsil proqramı üzrə tədris prosesində aktiv öyrənməni təşviq edən daha müasir texnoloji imkanlardan tam istifadə edilməməsi;<br>● İkili diplom proqramı üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən interaktiv təlim metodlarından ardıcıl şəkildə istifadə edilsə də, innovativ təlim metodlarının tətbiqinə tam yer ayrılmaması;<br>● İkili diplom proqramı üzrə tədris metod və üsullarının monitorinqinin daha çox şifahi sorğu xarakteri daşıması və sorğularının sistemli təhlil mexanizimin formalaşdırılmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | ● Təhsil proqramı üzrə tədris prosesində aktiv öyrənməni təşviq edən daha müasir texnoloji imkanlarından istifadənin gücləndirilməsi;<br>● İkili diplom proqramı üzrə təlim nəticələrinin əldə olunmasını dəstəkləyən innovativ təlim metodlarından daha geniş istifadənin təmin olunması;<br>● İkili diplom proqramı üzrə tədris metod və üsullarının monitorinqi və preventiv tədbirlərin daha sistemli şəkildə təşkil olunması; |

| 5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • İkili diplom proqramı üzrə CVU-nun və ADPU-nun müəllimlərinin eyni elektron platformalardan istifadə etməməsi, həmçinin ADPU-nun hər bir müəlliminin TEAMS platformasından fəal şəkildə istifadə etməməsi və elektron poçtdan istifadəyə üstünlük verməsi;<br>• Tələbələrə dəstək xidmətlərinin əhatəli şəkildə təşkil olunmaması;<br>• İkili diplom proqramı çərçivəsində maddi-texniki bazanın imkanlarının ehtiyaclara tam cavab verməməsi;<br>• Təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsi və yenilənməsi üzrə monitorinqinin səmərəli və sistematik təşkil olunmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | ● İkili diplom proqramı üzrə tədris prosesinə cəlb olunan ADPU-nun müəllimlərinin CVU-nun istifadə etdiyi Blackboard elektron platformasına çıxışla təmin olunması;<br>● Dərslik və dərs vəsaitlərinin alınması, elektron kitabxananın yaradılması və beynəlxalq məlumat bazaları üçün vəsaitlərin ayırılması; |

| | |
|---|---|
| | • Tələbələrə dəstək xidtmətlərinin təkmilləşdirilməsi (akademik yazı ilə bağlı tələbələrə dəstək xidmətlərinin göstərilməsi, akademik məsləhətçi vəzifəsinə əməkdaşın cəlb edilməsi və s.)<br>• İkili diplom proqramı çərçivəsində təhsil alan tələbələr üçün yeməkxana xidmətinin, qrup işlərinin daha səmərəli təşkili, məsləhət saatları üçün fiziki imkanların yaxşılaşdırılması;<br>• Təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin daha səmərəli şəkildə həyata keçirilməsi; |
| **6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi- texniki baza** | |
| **Aşkarlanmış nöqsanlar** | • Təhsil proqramı üzrə tədris üçün ayrılan bəzi otaqlarının səmərəli tədris prosesi üçün tam uyğun olmaması (dizaynı və işqlandırma probleminin olması, bəzi dərslərin Akt zalında həyata keçirilməsi və bunun tədris prosesində müzakirələr, qrup işlərinin təşkili kimi interaktiv öyrənmə fəaliyyətlərin təşkilinə, həmçinin kompüterdən istifadəyə mane olması və s.) və tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti ilə bağlı (yeməkxanadan istifadə ilə bağlı çətinliklər) çatışmazlıqların olması;<br>• Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının zəngin olmaması, bəzən təlim materiallarına əlçatanlıqda problemlər yaşanması;<br>• İstehsalat təcrübəsinin təşkili ilə bağlı çətinliklərin olması və xüsusi tənzimləmə mexanizminin olmaması |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | • Tədris otaqlarının şəraitinin tədrisin səmərəli təşkili üçün təkmilləşdirilməsi və infrastrukturundan istifadənin tələbələr üçün əlçatanlığını təmin etmək məqsədilə infrastrukturun təkmilləşdirilməsi;<br>• Təlim resurslarının ABŞ-dən Azərbaycana gətirilməsi zamanı yarana biləcək ləngimələrin qarşısının alınması məqsədilə gömrük qaydalarının öncədən yoxlanılması və müvafiq tədbirlərin görülməsi;<br>• Proqramda zəruri, eyni zamanda icbari olan istehsalat tərcrübəsinin təşkili ilə bağlı funksional qaydaların formalaşdırılması;<br>• İnfrastruktur problemlərinin qarşısını almaq üçün müntəzəm texniki xidmət və nəzarət proqramlarının hazırlanması və həyata keçirilməsi. |

| 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların olmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | • Təhsilalanların təlim nəticələrinin qiymətləndirilməsi ilə bağlı qaydaların formalaşdırılması və tətbiqi |

| 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • ADPU müəllimlərinin tədris prosesinə cəlb olunması sahəsində fəaliyyətlərin az olması;<br>• Təhsil proqramı üzrə professor-müəllim heyəti üçün yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemin mütəşəkkil olmaması;<br>• Professor-müəllim heyəti üçün müasir tədris metodları üzrə təlimlərin az olması;<br>• Akademik məsləhətçilərin (tyutor) olmaması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | • ADPU-nun tam ştatlı müəllimlərinə lazımı təlimlərin verilməsi və onların təhsil proqramının tədrisinə cəlb edilməsi;<br>• Təhsil proqramında dərs deyən müəllim heyətinə mütəmadi təlimlərin keçirilməsi;<br>• Təhsil proqramı üzrə professor-müəllim heyəti üçün yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin təşkil edilməsi;<br>• Dərs deyən müəllimlərə akademik məsləhətçi (tyutor) rolunu verib onlara tələblərin təhkim edilməsi; |

| 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • Tədris prosesinin tələbəyönümlü təşkilinin zəif olması;<br>• Tələbələr üçün fərdi tədris planın zəif olması;<br>• İnsan müxtəlifliyi haqqında məlumatlılığın az olması;<br>• Hər bir fənnin semesterin ortası və sonunda qiymətləndirilməməsi (Course Evaluation); |

| | |
|---|---|
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | ● Tədris prosesinin tələbəyönümlü təşkil edilməsi hər bir tələbə üçün fərdi tədris planın təşkil olunması;<br>● Təhsil proqramında dərs deyən müəllimlər və proqramın administrativ heyəti üçün insan müxtəlifliyi haqqında təlimlərin keçirilməsi;<br>● Hər bir dərsin semesterin ortası və sonunda qısa formada qiymətləndirilməsinin aparılması (Course Evaluation).<br>● Təhsil proqramının tələbəyönümlü təşkil olunması üçün CVU-nun təcrübəsindən bəhrələnilsin. |

| **10. Təhsil proqramının monitorinqi** | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | ● Təhsil proqramının monitorinqi strategiyası və fəaliyyət planının olmaması və monitorinqlərin qeyri-formal şəkildə təşkil edilməsi;<br>● Tələbələrlə aparılan sorğuların təhlilinə dair və aşkarlanmış çatışmazlıqların aradan qaldırılması üzrə aparılan işə dair sənədləşmənin olmaması (məsələn, Elmi Şuranın protokolları) |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | ● Proqramın monitorinqi strategiyası və fəaliyyət planının hazırlanması və maraqlı tərəflərlə paylaşılması;<br>• Şəffaflığın artırılması məqsədilə sorğu keçirilməsi prosesinin təkmilləşdirilməsi, təhlil nəticələrinin və sorğu nəticələri üzrə aparılan işin sənədləşdirilməsi və maraqlı tərəflərlə paylaşılması; |

| **11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi** | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | ● Proqramın dəyişən əmək bazarının tələbləri nəzərə alınmaqla və bütün maraqlı tərəflərin iştirakı ilə yenilənməsinin həyata keçirilməməsi; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | ● Proqramın davamlı təkmilləşdirilməsi üçün maraqlı tərəflərlə vaxtaşırı üz-üzə görüşlər və müzakirələr keçirilməsi; |

| 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | |
|---|---|
| **Aşkarlanmış nöqsanlar** | • Tələbə və məzunlara dəstək üçün Tələbə və Məzun xidmətləri və Karyera mərkəzinin olmaması;<br>• Tələbələrin təcrübə fəaliyyətinin təşkili üzrə sistematik işin aparılmaması, tələbələrin təcrübə imkanlarını əksərən öz əlaqələri vasitəsilə araşdırıb tapması; |
| **Nöqsanın aradan qaldırılması üçün Komissiyanın tövsiyəsi** | • Proqramın tələbə və məzunlarının əmək bazarındakı fəaliyyətinin izlənməsi və onlara bu istiqamətdə məsləhət və dəstək göstərilməsi prosesinin təkmilləşdirilməsi;<br>• Təcrübə fəaliyyətinin təşkili prosesinin təkmilləşdirilməsi; |

## 3. Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə Corc Vaşinqton Universitetinin "Təhsil siyasəti və idarəetməsi" ixtisası üzrə ikili diplom proqramının akkreditasiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"na uyğun olaraq 12 meyar üzrə aparılıb. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir meyar üzrə tövsiyələr təqdim edilmişdir ümumilikdə 30 tövsiyə). Yekun nəticə olaraq, Akkreditasiya Komissiyası tərəfindən aparılmış təhlil əsasında 12 meyardan 11-i "əsasən uyğundur", 1 meyar "qismən uyğundur" kimi qiymətləndirilib.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti proqram akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## 4. Təhsil proqramının akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də magistratura səviyyəsində keçirilmiş proqram akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universiteti "Təhsil siyasəti və idarəetməsi" ixtisası üzrə ikili diplom proqramının müvafiq meyarlar üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə "əsasən uyğundur" hesab edilməsi;

- Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universiteti "Təhsil siyasəti və idarəetməsi" ixtisası üzrə magistratura səviyyəsindəki ikili diplom proqramının 2024/2025-ci tədris ilindən başlayaraq növbəti 5 il müddətinə proqram akkreditasiyasından keçməsi məqsədəuyğun hesab edilir.